

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Heydər Əliyev irsinin təşviqi innovativ həllərdə"



4


№ 107 (6790)

# SƏS

20 iyun 2023-cü il.
Qiymәti 60 qәpik


# Azərbaycan və Tatarıstan: Bizi əsrlərin qardaşlığı birləşdirir!

Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ölkəmizdə səfərdə olub



2

# Ermənistanın düşünməyə vaxtı varmı?

Yeni müharibənin baş verməməsi, "Yerablur" hərbi məzarlığının paytaxt İrəvanın içinə doğru genişlənməməsi üçün hələ ki, doğru seçim etməyə zaman tanınmaqdadır



7

## Bazar lövhələri: qiymətlər necədir?



11

## Uşaqları küçəyə qovun! SƏBƏB



15

## Uşaq pulunu necə kompensasiya etmək olar?



16



## Qurbanlıq heyvan necə seçilməlidir?

16

## Mədəniyyət qıtlığı



12

# Azərbaycan və Tatarıstan: Bizi əsrlərin qardaşlığı birləşdirir!

## Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ölkəmizdə səfərdə olub

**İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində olublar. Prezident İlham Əliyev və Rüstəm Minnixanov elektromobillərlə Ağalı kəndini gəzdilər.**

Qeyd edək ki, bu günədək Böyük Qayıdış çərçivəsində Zəngilanın Ağalı kəndinə ümumilikdə 86 ailə - 420 nəfər köçürülüb. Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, ”ağıllı” texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur yaradılıb. Prezident İlham Əliyev və Rüstəm Minnixanov Ağalı sakinləri ilə görüşüb söhbət etdilər.

Daha sonra Prezident İlham Əliyev və ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında ”Avto Lizinq Azərbaycan” MMC-nin açılışında iştirak ediblər. İqtisadiyyat naziri Mikayıl Cabbarov görülən işlər barədə məlumat verdi.



Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

Bildirildi ki, bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Parkın prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və sairin təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb.

Ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hərcür təşkilati dəstək göstərilir.

Prezident İlham Əliyev və Rəis Rüstəm Minnixanov ”Avto Lizinq Azərbaycan” MMC-nin açılışını bildirən rəmzi lenti kəsdilər.

Məlumat verildi ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan ”Avto Lizinq Azərbaycan” MMC tərəfindən ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək.

Mərkəzdə texniki xidmət bloku, təmir emalatxanası, gözləmə zalı, tədris otağı, anbar, portal tipli avtoyuma məntəqəsi və xidməti otaqlar yaradılıb. Texniki təmir emalatxanasında mühərriklərin və digər aqreqatların, elektrik avadanlıqlarının, pnevmatik və hidravlik qurğuların təmiri sahələri, daxili yanma mühərriklərinin yuyulması məntəqəsi fəaliyyət göstərəcək.

Burada, həmçinin mehmanxana, ehtiyat hissələri mağazası və digər xidmət sahələri istifadəyə verilib. Bununla yanaşı, Mərkəzdə mobil təmir və texniki servis briqadaları da fəaliyyət göstərəcək ki, bu da işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan bütün texnikalara yerində xidmət göstərməyə imkan yaradacaq.






İyunun 17-də Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.

Tatarıstan Respublikasının Rəisini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar:

***Ardı Səh. 3***





Əvvəli Səh. 2

# Azərbaycan və Tatarıstan: Bizi əsrlərin qardaşlığı birləşdirir!

Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ölkəmizdə səfərdə olub

-Hörmətli Rüstəm Nurqaliyeviç, bir daha xoş gəlmisiniz. Mən yeni görüşümüzə çox şadam. Əlbəttə, bu gün birgə Mərkəzin açılışı əlamətdar hadisədir. Lakin daha vacibi bizim sizinlə ünsiyyətimizdir. Mən bizim həm Kazanda, həm də Bakıda görüşlərimizi məmnuniyyətlə yada salıram. Şadam ki, Sizinlə müəyyən etdiyimiz hər şey, o cümlədən "Araz Vadisi" Sənaye Parkının birinci obyekti, - bu, qardaş Tatarıstanın obyektidir, - icra olunur. Yəni, biz ərazilərin bərpası işinə belə münasibətə görə çox minnətdarıq. Əlbəttə ki, biz müəyyənləşdirdiyimiz əməkdaşlıq proqramının tam həyata keçəcəyinə ümidvarıq.

Biz burada məsləhətləşmələrə gələn və sonrakı planlar üzrə qərar qəbul edən nümayəndə heyəti ilə artıq fikir mübadiləsi aparmışıq. Əlbəttə, sənaye kooperasiyasında, energetikada, neft-qaz sahəsində perspektivlər böyükdür. Təbii ki, mədəni əməkdaşlıq da çox vacib sahədir. Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar. Əlbəttə ki, bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir və bizim dövlətlərarası səviyyədə planlaşdırdığımız, həyata keçirdiyimiz hər bir məsələ kimi çox səmərəli, dinamik şəkildə inkişaf edir.



Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov:

-Hörmətli İlham Heydər oğlu, hər şeydən əvvəl gözəl ölkədə olmaq imkanına, Sizin dəvətinizə görə təşəkkür etmək və əlbəttə, Sizə - Azərbaycan Prezidentinə və bizim Prezidentə minnətdarlığımı bildirmək istərdim. Biz ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə regional səviyyədə də ciddi töhfə veririk.

Tatarlara və azərbaycanlılara gəlincə, biz dil baxımından da tarixən çox yaxınıq. Siz bu qəsəbədəki vətəndaşlarınızla danışırsınız və mən praktik olaraq hər şeyi başa düşürəm. Əlbəttə, bu gün biz tikintisi davam edən məsciddə olduq. Bütün bunlar bizə çox yaxındır və bütün bunlar bizi çox yaxınlaşdırır. Bizim birinci Prezidentimiz Mintimer Şaymiyev, onun və Tatarıstanın yaxın dostu Heydər Əliyev münasibətlərimizin möhkəm təməlini qoyublar.

# Azərbaycan OPEC+ formatı yaranan ilk gündən bu əməkdaşlığa böyük töhfə verir

*Prezident İlham Əliyev OPEC-in Baş katibini qəbul edib*

Prezident İlham Əliyev iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı qəbul edib. Haysam Əl-Qays, ilk növbədə, Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, Şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şahzadə Əbdül Əziz bin Salman Əl-Səuda çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi. Baş katib vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan OPEC+ formatı yaranan ilk gündən bu əməkdaşlığa böyük töhfə verir və o, buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.



Eyni zamanda, bu gün qlobal neft bazarında OPEC+ formatında fəaliyyətin roluna toxunuldu, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğu xüsusi qeyd edildi.

Söhbət zamanı bu gün "fossil" yanacaqlar sahəsində mövcud olan məsələlər müzakirə edildi, gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının vacibliyi bildirildi. Dünya iqtisadiyyatının artması nəticəsində ümumilikdə enerjiyə çoxalan tələbat nəzərə alınaraq, bu sahəyə son zamanlarda investisiyaların azaldılmasının müəyyən narahatlıq doğurduğu qeyd olundu.

Görüşdə dünyada yaşıl enerji sahəsində əldə edilən irəliləyişlərlə bərabər, ənənəvi yanacağın oynadığı vacib rol vurğulandı. Ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması baxımından yeni texnologiyaların tətbiqinin xüsusi əhəmiyyət daşıdığı bildirildi. Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.






# “Heydər Əliyev irsinin təşviqi innovativ həllərdə”

*Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib*

***İyunun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Bakı Ali Neft Məktəbinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ”Heydər Əliyev irsinin təşviqi innovativ həllərdə” Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları Bakı Ali Neft Məktəbinin inzibati binasında müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Rəqəmsal İdeya Müsabiqəsi barədə videoçarx nümayiş olunub.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov müsabiqə haqqında məlumat verərək bildirib ki, ”Heydər Əliyev İli” çərçivəsində keçirilən müsabiqənin əsas məqsədi Yeni Azərbaycan Partiyasının gənc fəallarının innovasiyayönümlü potensialının aşkarlanması, komanda quruculuğu bacarıqlarının təkmilləşdirilməsi və ölkəmizdəki innovasiya ekosistemində gənclərin iştirakçılığının artırılmasıdır. Bəxtiyar İslamov qeyd edib ki, müsabiqə üçün respublikanın 63 inzibati ərazi vahidindən 1372 gənc müraciət edib. Onlardan 120 nəfər seçilərək 30 fərqli komandada yarışıblar. Gənclər ”Qarabağ arzusunda” komanda quruculuğu fəaliyyətində, ”Daim yaddaşımızda” rəqəmsal həll konseptində, ”Örnək ömür” intellekt rinqində və ”100 ilin astanasında” tarixi faktlar yarışında iştirak ediblər. İştirakçılar xüsusi mentorlarla komanda katalizatoru, hakaton, intellekt rinqi, beyin fırtınası, ideyalar sərgisi və layihələrin təqdimatından təşkil olunmuş komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar. 30 komandadan 10-u finala vəsiqə qazanıb. Münsiflər heyəti tərəfindən 3 qalib komanda müəyyən edilib.

Daha sonra qalib komandalar mükafatlandırılıb. I, II, III yerləri tutmuş komandalara müvafiq diplomlar və xatirə hədiyyələri, qalib komandaya isə əlavə olaraq kubok təqdim olunub.

Müsabiqədə birinciliyi qazanmış ”Əbədi” komandasının üzvlərinə mükafatları Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təqdim edib.

Mərasimdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, 2023-cü il Azərbaycan xalqı üçün olduqca əlamətdardır: ”Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il Azərbaycanda ”Heydər Əliyev İli” elan olunub. ”Heydər Əliyev İli” çərçivəsində həm respublikamızda, həm də onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir, müdrik dövlət xadiminin zəngin dövlətçilik irsinə hərtərəfli nəzər salınır”.







Tahir Budaqov qeyd edib ki, Heydər Əliyev yeni Azərbaycan reallığını və ölkəmizin parlaq gələcəyinin etibarlı bünövrəsini yaratmışdır: ”Ulu Öndər həm sovetlər dönəmində, həm də müstəqillik illərində xalqımız qarşısında misilsiz xidmətlər göstərib. Xüsusilə də, Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın tələbi ilə hakimiyyətə qayıtmaqla Azərbaycanı məhv olmaqdan xilas etdi. Qısa müddət ərzində respublikada sabitlik təmin olundu, Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq müstəvidə müstəqil dövlət kimi layiqli yerini tutdu”.

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan gəncliyinə də hər zaman yüksək diqqət və qayğı göstərib. ”Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi illərdə gənclərin inkişafı üçün məqsədyönlü işlər görülüb və mühüm addımlar atılıb. Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir”.






Ulu Öndərin əbədiyaşar ideyalarının yeni nəslə aşılanmasının xüsusi önəm daşıdığını diqqətə çatdıran Tahir Budaqov vurğulayıb ki, ”Heydər Əliyev İli” çərçivəsində keçirilən Rəqəmsal İdeya Müsabiqəsi Ulu Öndərin zəngin irsinin yeni yanaşmalar əsasında öyrənilməsi və gənclərimizin innovativ potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir: ”Bu cür müsabiqələr gənclərin istər intellektual potensialının üzə çıxarılması, istər ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı, istərsə də gənclər arasında kommunikasiyanın gücləndirilməsi baxımından önəmlidir”,- deyən Tahir Budaqov YAP-ın gənclərin inkişafına xüsusi diqqət yetirdiyini və onlara hər zaman dəstək göstərəcəyini vurğulayıb.

Müsabiqədə 2-ci yerin qalibi olan ”İstiqlal” komandasının üzvlərinə mükafatları təqdim edən Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımov qeyd edib ki, ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu siyasətin nəticələri gənclərimizin uğurlarında öz əksini tapır.

Rektor gənclərin inkişafında, bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayan belə müsabiqələrin təşkilinin ənənəyə çevrilməsini müsbət hal kimi dəyərləndirib. O qeyd edib ki, Rəqəmsal İdeya Müsabiqəsi özünəməxsusluğu ilə seçilir. Elmar Qasımov müsabiqənin gənclərin inkişafında, onların potensialının, bilik və bacarıqlarının artırılmasında mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. ”Müsabiqədə iştirak edən komandaların adlarının milli olması təqdirəlayiqdir. Bu, gənclərimizin milli-mənəvi dəyərlərə sadiqliyinin göstəricisidir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının sıralarında birləşən gənclər Heydər Əliyev ideyalarına və milli-mənəvi dəyərlərə sadiqdirlər” ,- deyə Elmar Qasımov vurğulayıb.

Müsabiqədə 3-cü yerin qalibi olan ”Zəfər” komandasına mükafatları təqdim edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov komanda üzvlərinə uğurlar arzulayıb. ”İntellekt Rinqi”nin qalibi olan ”Gənc Azərbaycançılar” komandasının üzvlərinə isə mükafatları YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu təqdim edib.

”Heydər Əliyev İli” çərçivəsində keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edən Elşad Mirbəşiroğlu Yeni Azərbaycan Partiyasının hər zaman kreativ ideyalarla çıxış etdiyini bildirib. O, bu tipli layihələrin gənclərin inkişafına xidmət etdiyini diqqətə çatdırıb. Sonda müsabiqə qalibləri ilə xatirə fotosu çəkdirilib.

# Afrikadan sülhməramlı missiya

*Missiya üzvləri Kiyevdə olub və Sankt-Peterburqa gediblər*



Ukrayna böhranının həllinə töhfə vermək istəyənlərin sayı getdikcə artır. Cümə günü Cənubi Afrika, Komor Adaları İttifaqı, Zambiya, Seneqal, Misir, Uqanda və Konqonu təmsil edən yüksək səviyyəli nümayəndə heyəti Kiyevdə Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşüb. İyunun 17-də Afrikadan olan siyasətçiləri Sankt-Peterburqda Rusiya lideri Vladimir Putin qəbul edib. Kreml iddia edir ki, Ukrayna probleminin həlli üçün istənilən ideyaya açıqdır, lakin hələlik Afrika təşəbbüsü ilə ətraflı tanış deyillər. KİV-in məlumatına görə, söhbət qoşunların təmas xəttindən çıxarılmasından, Belarus ərazisindən nüvə silahının çıxarılmasından, Rusiya Federasiyasına qarşı sanksiyaların yumşaldılmasından və Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) prezident Putinin həbsinə görə verdiyi orderin dayandırılmasından gedir.

CAR, Komor Adaları İttifaqı, Zambiya və Seneqal prezidentləri, Misirin baş naziri, Uqanda liderinin xüsusi nümayəndəsi və Konqo prezidentinin ofisinin rəhbəri cümə günü Kiyevə toplaşıblar. Onlar Ukrayna paytaxtının ab-havasını tam hiss edə biliblər. Səhər saatlarında bütün Ukraynada hava hücumu xəbərdarlığı elan edilib, Kiyevdə hava hücumundan müdafiə sistemi fəaliyyət göstərib. Ukraynanın xarici işlər naziri Dmitri Kuleba daha sonra bununla bağlı deyib ki, Rusiya Federasiyası bununla Afrika liderlərinə ”sülh yox, müharibə axtarır” siqnalı göndərib. Bu arada, Cənubi Afrika prezidenti Siril Ramafosanın ofisində gün ərzində Kiyevdə heç bir siren və ya partlayış səsi eşitmədiklərini və missiyanın ”yaxşı və plan üzrə davam etdiyini” əmin ediblər.

Axşam cənab Ramafosa özü səfəri şərh edib. Bununla belə, əksər hallarda o, ”danışıqlar və demokratiya yolu ilə” mümkün qədər tez sülhə nail olmaq zərurəti haqqında ümumi ifadələrlə işlətməklə məhdudlaşır. Həmçinin qarşıdurmanın hər iki tərəfi gərginliyi azaltmaq üçün tədbirlər görməlidir deyir. Prezident həmçinin cümə günü Ukraynanın Buça şəhərinə səfəri ilə bağlı təəssüratlarını bölüşüb və deyib ki, orada baş verənlərlə bağlı beynəlxalq araşdırma aparılmalıdır və eyni zamanda, onların Moskva və Kiyevdə dediklərinə ”diqqətlə qulaq asmaq lazımdır”. Halbuki, bütün sözlər artıq bir ildən çox əvvəl deyilib. Xatırladaq ki, Ukrayna Rusiyanı Buçada dinc əhalinin qətliamında ittiham edir, Rusiya Federasiyası isə bunun ”səhnə və təxribat” olduğunu iddia edir.

Nümayəndə heyətinin üzvləri Kiyevdən qatarla Polşaya gedib, daha sonra xüsusi təyyarələrlə Sankt-Peterburqa uçublar.

Şənbə günü Afrika ölkələrinin nümayəndələrini Vladimir Putin qəbul edib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, Rusiya tərəfdən görüşdə xarici işlər naziri Sergey Lavrov və prezidentin köməkçisi Yuri Uşakov da iştirak edib. Cənab Peskov əlavə edib ki, Vladimir Putin ”Ukrayna probleminin mümkün həll yollarını müzakirə etmək üçün istənilən təmaslara” açıqdır. Siril Ramafosa Kiyevdə olarkən deyib ki, danışıqlar zamanı Afrika liderləri BMT Nizamnaməsinin müddəalarına (xüsusən də suverenlik və ərazi bütövlüyünə hörməti nəzərdə tutur) riayət edilməsinin zəruriliyi məsələsini qaldıracaqlar.

Yuri Uşakov ”İnterfaks”a bildirib ki, cümə gününə kimi Moskva Afrika tərəfdən təklifləri ehtiva edən heç bir sənəd almayıb. Ancaq ərəfədə Reuters agentliyi sülh planının təfərrüatlarını paylaşıb. Atəşkəs üçün təklif olunan ”etimad tədbirləri” arasında qoşunların təmas xəttindən çıxarılması, Rusiyanın taktiki nüvə silahlarının Belarus ərazisindən çıxarılması, Rusiya Federasiyasına qarşı sanksiyaların yumşaldılması, habelə hərbi əməliyyatların dayandırılması daxildir. Vladimir Putinin həbsi üçün BCM tərəfindən order verilib. Bundan əlavə, siyahıda ”taxıl və gübrələrə dair qeydşərtsiz razılaşma” qeyd olunur (Afrika ölkələri Ukrayna münaqişəsi nəticəsində bu malların qiymətlərinin artırılmasından çox əziyyət çəkir).

## Doymuş təşəbbüslər

Afrika liderlərinin missiyasını ilk dəfə mayın 16-da Syril Ramafosa elan edib. O bildirib ki, Moskva və Kiyev nümayəndə heyətini qəbul etməyə razılaşıb, lakin əlavə təfərrüatları açıqlamayıb. Eyni zamanda, BMT-nin baş katibi Antonio Quterreşin planla tanış olduğu məlum olub.

Missiyanın tərkibi təsadüfi görünmür. Səfərdə olan siyasətçilər təkcə Afrikanın müxtəlif hissələrini və onların regional bloklarını deyil, həm də münaqişəyə fərqli baxışları təmsil edirlər. Belə ki, Uqanda, Konqo Respublikası və Cənubi Afrika ilin əvvəlində BMT Baş Assambleyasında Rusiya Federasiyasının hərəkətlərini pisləyən qətnaməyə səsvermədə bitərəf qalıb, lakin Misir, Zambiya, Seneqal və Komor adaları lehinə səs verib. Məsələn, Uqanda prezidenti Yoveri Museveni rusiyayönlü simpatiyasını gizlətmir, Zambiya lideri Hakainde Hiçilema isə Ukraynanı dəstəkləməyə meyllidir. Nəzəri olaraq, belə bir tərkibdə nümayəndə heyəti mövqelərin balansını təmin etməli idi.

2014-cü ildə fransız iş adamı Jan-İv Olivye tərəfindən əsası qoyulmuş, baş ofisi Londonda yerləşən Brazzavill Fondu (Brazzaville Foundation) qeyri-kommersiya təşkilatı missiyanın təşkili və maliyyələşdirilməsinə rəhbərlik edib. Son altı ayda o, dəfələrlə Kiyev və Moskvaya səfər edib, burada Ukrayna və Rusiya rəsmiləri ilə (xüsusən də Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanovla) səfərin təfərrüatlarını işləyib hazırlayıb.

Son onilliklər ərzində Jan-İv Olivye Afrika qitəsində xeyriyyəçilik və münaqişələrin həlli ilə məşğul olub. 78 yaşlı iş adamı Afrikanın ən təcrübəli və nüfuzlu siyasətçilərindən sayılan Konqo Respublikasının prezidenti Denis Sassu Nqessonun etimadını qazanıb. Eyni zamanda, Brazzavil Fondunun təsisçisi ABŞ və Rusiya Federasiyası da daxil olmaqla bütün dünyada geniş əlaqələrə malikdir.

”Financial Times”-ın yazdığına görə, cənab Olivye vaxtilə Rusiyanın dövlət korporasiyası Rosatom-a məsləhətlər verib. Jan-İv Olivyenin iştirak etdiyi tədbirlərdən ən böyüyü 1988-ci ildə Namibiyanın müstəqilliyinə, Anqolada vətəndaş müharibəsinin sona çatmasına və Cənubi Afrikada aparteid rejiminin dağıdılmasına töhfə verən Brazzavil Protokolunun imzalanmasıdır. Sazişlərin bağlandığı yer - tez-tez vasitəçilik təşəbbüsləri platforması kimi çıxış edən Konqo Respublikasının paytaxtı Brazzavillin adı Fonda verilib.

Xatırladaq ki, Ukraynada uzun müddətdir ki, sülh təşəbbüslərinin qıtlığı yoxdur. Moskva ilə Kiyev arasında dil tapmağa çalışan ən görkəmli oyunçular arasında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Braziliya lideri Luiz İnasio Lula da Silva və Çin prezidenti Xi Jinping var. Yaxın vaxtlarda Moskva Papanın ona həvalə etdiyi missiya çərçivəsində iyunun 5-6-da Kiyevə səfər etmiş kardinal Matteo Zuppini gözləyir. İndoneziya və Kamboca da öz fikirlərini bildiriblər.

Danışıqlardan sonra Volodimir Zelenski müharibəni bitirmək reseptinin sadə olduğu fikrini təkrarlayıb. Deyib ki, Rusiya Federasiyası bütün qoşunlarını Ukrayna ərazisindən çıxarmalıdır (bu ifadə ilə Kiyev Krımı da nəzərdə tutur). ”Ukrayna və dünyanın nə dondurulmuş münaqişələrə, nə də qaynayan müharibələrə ehtiyacı yoxdur” deyə o, Afrika təşəbbüsünün bu iki nəticədən birinə səbəb ola biləcəyini nəzərdə tuturmuş kimi əlavə etdi.

Qərbdə isə belə qorxular var ki, biz ukraynalıların hüquqlarını, suverenliyini və ərazilərini bərpa edəcək sülh istəyirik. ”Əgər kimsə Rusiyanı Ukraynanı tərk etməyə razı sala bilsə, biz bunu mütləq dəstəkləyəcəyik. Əgər biz atəşkəsdən, mövcud mövqeləri düzəltməkdən danışırıqsa, bu, sülh deyil”, - Avropa Komissiyasının mətbuat xidmətinin rəhbəri Erik Mamer cümə günü bildirib. NATO-nun baş katibi Yens Stoltenberq isə ”Ukrayna indi döyüşü dayandırarsa, o zaman müstəqil dövlət kimi mövcudluğunu dayandıracaq” deyib.

Bu arada, jurnalistlərlə söhbətində Jan-İv Olivier vurğulayıb ki, missiya qarşısına münaqişəyə dərhal son qoymaq kimi qlobal vəzifə qoymur. Məqsəd tərəfləri dinləmək, birbaşa hərbi əməliyyatların gedişi ilə bağlı olmayan məsələlər üzrə dialoqa başlamaq və bununla da danışıqların bərpasına zəmin yaratmaqdır.

## Danışıqlar...

Qeyri-Qərb ölkələri Ukraynadakı münaqişənin sülh yolu ilə həlli üçün əl-ələ verməyə çalışırlar. Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosa başda olmaqla, Kiyev və Sankt-Peterburqda olan Afrika liderləri missiyalarını heç bir irəliləyiş olmadan başa vursalar da, səylərini azaltmaq niyyətində deyillər. Üstəlik, əminiklə demək olar ki, onlar gələcəkdə sülh işinə həlledici töhfə verə biləcəklər. Amma Qərb də sülh yolu ilə nizamlanmanı ləğv etmir. Belə ki, NATO-nun baş katibi Yens Stoltenberq Ukraynanın əks hücumu başa çatdıqdan sonra danışıqlar prosesinə qayıtmağa icazə verib. Avropanın müdafiə sənayesi üzrə komissarı Thierry Breton döyüşlərin ”daha bir neçə ay” davam edəcəyini, Çexiya prezidenti Petr Pavel isə sülh danışıqlarının bu ilin sonuna kimi başlayacağını istisna etməyib.

Son aylarda dünya Ukraynadakı münaqişəyə son qoymaq üçün iki yanaşmanın şahidi olub. Qeyri-Qərb ölkələri, ilk növbədə Çin və Afrika dövlətləri Moskva və Kiyevi atəşi dayandırmağa və mümkün qədər tez danışıqlara başlamağa çağırır. Qərb isə indi dialoqun qeyri-mümkün olduğuna inanır və öz səylərini Ukrayna Silahlı Qüvvələrinə başlayan əks-hücumda kömək etməyə yönəldir. Təəccüblü deyil ki, bu cür yanaşma bütün dünyanın nəzərində Kiyevin müttəfiqlərini hərbi əməliyyatların davam etdirilməsinin tərəfdarları kimi ifşa edir. Qərb mediası belə bir qavrayışın qaçılmazlığı barədə hələ aprelin sonlarında, Çin sədri Si Tszinpin nizamlanmaya fəal qoşulmaq qərarına gələndə və münaqişənin siyasi həllini axtarmaq üçün öz nümayəndəsi Li Huini Avropa, Ukrayna və Rusiyaya göndərəndə xəbərdarlıq etmişdi. NATO-nun baş katibi Yens Stoltenberq Qərbin kollektiv mövqeyinə aydınlıq gətirməyə çalışıb.

Bazar günü ”Welt am Sonntag” qəzetinə verdiyi müsahibədə cənab Stoltenberq əmin etdi ki, Qərb sülh yolu ilə nizamlanmanın əleyhinə deyil və heç də danışıqları istisna etmir. ”Biz hamımız istəyirik ki, bu müharibə bitsin. Lakin sülhün uzunmüddətli olması üçün ədalətli olmalıdır”, - NATO-nun baş katibi bildirib. Onun fikrincə, münaqişənin dondurulması və ya ”şərtlərini Rusiya diktə edəcək sövdələşmə”nin bağlanması qəbuledilməzdir, Ukraynanın qoyduğu şərtlər isə əksinə, ədalətlidir. Ona görə də əminəm ki, Yens Stoltenberq, hər şey əks-hücumun uğurundan asılı olacaq.

”Ukrayna nə qədər çox işğal olunmuş əraziləri azad edə bilsə, ədalətli və davamlı sülhə nail olmaq üçün danışıqlar masası arxasında onun kartları bir o qədər yaxşı olacaq”, - deyə siyasətçi yekunlaşdırıb.

Bazar günü Çexiya prezidenti, istefada olan general və NATO Hərbi Komitəsinin keçmiş sədri Petr Pavel də danışıqların mümkünlüyünü əks hücumun uğurlu və ya uğursuzluğu ilə əlaqələndirib. Onun sözlərinə görə, Ukraynanın 2023-cü ildə hücum üçün yalnız bir şansı var, çünki münaqişənin nəticəsinə həlledici təsir göstərəcək ikincini artıq hazırlamaq mümkün olmayacaq. Siyasətçi qeyd edib ki, bu ilin yekunlarına görə, ya sülh danışıqları başlayacaq, ya da hərbi əməliyyatlar dondurulacaq və bundan sonra yalnız 2024-cü ildə Kiyev öz məqsədlərinə hərbi yolla nail olmaq üçün ikinci cəhd edə biləcək.

Maraqlıdır ki, bütün bu bəyanatlar Afrika sülhməramlı missiyasının - tərkibində Zambiya, Komor adaları, Seneqal və Cənubi Afrikanın prezidentləri, həmçinin Misirin baş naziri və xüsusi nümayəndələrinin Kiyev və Sankt-Peterburqdan qayıtmasından dərhal sonar verilib. Rusiya və Ukrayna hakimiyyət orqanları ilə danışıqların heç bir irəliləyiş olmadan başa çatmasına baxmayaraq, Afrika liderləri nikbindir və öz təşəbbüslərini irəli aparmaq niyyətindədirlər.

Afrika nümayəndə heyətinin ümumi mövqeyini onun qeyri-rəsmi lideri, Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosa açıqlayıb. Onun sözlərinə görə, sülhməramlı missiya münaqişənin həllinə yaxınlaşmağa ”təsir” göstərib və iyulda Rusiya-Afrika sammitində hərbi əməliyyatların dayandırılması ssenariləri üzrə müzakirələr davam etdiriləcək. Bütün bu müddət ərzində afrikalılar Kiyevlə əlaqə saxlamaq niyyətindədirlər. ”Afrika Sülh Təşəbbüsü təsirli olub və onun son uğuru müharibəni bitirmək məqsədinə nail olmaqdan asılı olacaq” deyə Ramafosa qeyd edib. Cənubi Afrika Prezidenti əmindir ki, onların danışıqlar aparan nümayəndə heyətinin ”həqiqi liderlərdən ibarət yeganə nümayəndə” olması bu altı ölkənin səylərinin potensialından xəbər verir.

Afrikalıların öz işlərinə verdiyi qiymət bir tərəfdən həddən artıq görünə bilər. Axı Kiyev bildirib ki, onlar istənilən sülh təşəbbüslərini alqışlayırlar, lakin yalnız Volodimir Zelenskinin ”sülh düsturuna” uyğun işləməyə hazırdırlar və Afrika nizamlama planı Ukrayna prezidentinin baxışı ilə üst-üstə düşmədiyindən, bu, heç də mümkün olmayacaq. hər şeyin əsasını təşkil edir. Rusiyada prezident Vladimir Putin Afrikadan gələn qonaqları əmin edib ki, Moskva heç vaxt danışıqlardan geri çəkilməyib, lakin açıq şəkildə bildirib ki, danışıqlar yalnız Rusiya şərtləri ilə mümkündür.

Bununla belə, Ukrayna əks-hücumunun sonuna qədər - nəticəsindən asılı olmayaraq, danışıqların aparılması həqiqətən mümkün deyil. Üstəlik, görünür, hətta Vladimir Putin də münaqişənin inkişafını Ukrayna Silahlı Qüvvələrinin əks-hücumundan asılı edir. ”Ümumiyyətlə, hər şey bu qondarma əks-hücumun sonunda inkişaf edəcək potensialdan asılı olacaq... Biz vəziyyətin necə olacağına baxacağıq. Bundan çıxış edərək, növbəti addımlar atılacaq”, - Rusiya Federasiyasının Prezidenti ötən gün bildirib. Görünür, Rusiyanın mövcud vəziyyətdən asılı olaraq həyata keçiriləcək fərqli xarakterli planları var.

***V.VƏLİYEV***

# Kosmik sənayemiz:
## inkişafda yeni uğurlara imza atırıq!

Azərbaycan dövlətinin kosmik sənayenin inkişafı sahəsində yeni uğurlara imza atması, xüsusilə də, "Azersky" və "Azerspace-1"in ardınca, "Azerspace-2"-in peykinin orbitə çıxarılmasını təmin etməsi ölkəmizin iqtisadi gücünə güc qatıb. "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək.Yeni peyk "Azərkosmosun" xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, həm də birinci telekommunikasiya peyki - "Azerspace-1" peykinin orbitdəki ehtiyatı olacaq. Bu da, öz növbəsində, "Azərkosmos"a bugünədək ehtiyat peykin olmaması səbəbindən iştirak edə bilmədiyi irihəcmli beynəlxalq tenderlərdə iştirak etmək imkanı yaradacaq. Növbəti peykin orbitə buraxılması ilə əlaqədar Prezident İlham Əliyev Azərbaycan xalqına ünvanladığı təbrikində bildirib ki, bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir: "Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artıb. Eyni zamanda, "Azərsky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin xüsusi rolu var. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk".

Yerli və xarici ekspertlərin gəldikləri qənaətə görə, Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edərək bütün sahələrdə insan fəaliyyətinin, sosial-iqtisadi münasibətlərin tərkib hissəsinə çevrilib. Hazırda Azərbaycan internet istifadəçilərinin sıxlığına görə MDB ölkələri arasında birinci yerdədir. Avropa məkanında isə 8-ci yerdə qərarlaşır. Xüsusilə də, "Elektron hökumət" layihəsinin həyata keçirilməsi İKT sahəsində müsbət dinamika daha cəlbedici olub. Bu layihənin əsas hədəfi sahibkarlara, əhali qruplarına, biznes sektoruna verilən xidmətləri avtomatlaşdırmaq, eləcə də dövlətin özünün müxtəlif prosedurlarını avtomatlaşdırmaqdır. Xidmətlərin elektronlaşdırılması Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin müsbət nəticələr verməsinə imkanlar yaradır.

### Kosmik sənaye sektorunun inkişafı sayəsində ölkəmizin siyasi-iqtisadi gücünü artırır

Hazırkı dövrdə, "Elektron hökumət" portalına 45 qurum fiziki olaraq qoşulmuş və Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş 428 elektron xidmətdən 280-i vahid portal (bir pəncərə prinsipi) vasitəsilə əhaliyə təqdim olunur. 270 xidmət Vətəndaşlar üçün Elektron Xidmətlər Portalında, 313 xidmət isə dövlət qulluqçuları üçün Elektron Xidmətlər Portalında yerləşdirilib. Azərbaycan Prezidenti İlham Əliyev kosmik sənaye sektorunun inkişafı sayəsində respublikamızın siyasi-iqtisadi gücünün artacağına inandığını ifadə edib: "Bu il biz birinci Azərbaycan telekommunikasiya peykini orbitə buraxacağıq. Bu, tarixi hadisə olacaqdır. Azərbaycan kosmik sənaye yaradır. Azərbaycan kosmik sənayeyə malik olan ölkələr sırasına daxil edilir. Bu, uzaqgörən siyasətimizin nəticəsidir. Mən hesab edirəm ki, Azərbaycan bütün mütərəqqi və qabaqcıl texnologiyaları gətirməlidir. Biz gətiririk, tətbiq edirik, kadrları hazırlayırıq. Beləliklə, ölkəmizin həm siyasi çəkisi, həm iqtisadi gücü artacaqdır".

Azətbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı öz əksini tapmışdır. Konsepsiyaya görə, ölkə əhalisinin İKT və rabitə xidmətlərindən istifadə imkanları daha da genişləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində etibarlı təhlükəsizlik sisteminin yaradılması, milli standartların formalaşdırılması və ölkə üzrə tam rəqəmli televiziya yayımının tətbiq olunması nəzərdə tutulmuşdur. Bu gün artıq tam əminliklə, demək olar ki, təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında planlaşdırılan hədəflərə və məqsədlərə nail olunub. Görülən işlərin məntiqi olaraq, artıq ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Əhalinin və turistlərin ictimai yerlərdə internetə daha rahat çıxışını təmin etmək üçün Bakının 20 parkında "İctimai Wi-Fi" istifadəyə verilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq 225 milyon manat olub. Sektorun gəlirləri isə 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edib. Ölkəmizdə beynəlxalq internet kanallarının ümumi tutumu 820 qeqabitədək artırılıb. Beynəlxalq səs trafikinin etibarlılığını və təhlükəsizliyini təmin etmək məqsədilə cari ildən etibarən Beynəlxalq Telefon Stansiyasının üç ehtiyat sistemi istismara verilib.







### Azərbaycan birincilər sırasındadır

Avropa və Amerika mütəxəssislərinin birgə səyləri ilə hazırlanan və Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin iqtisadi imkanlarının genişlənməsinə yeni imkanlara yaradır. "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyev bu peykin fəaliyyətinin iqtisadi cəhətdən də səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin". Artıq uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan, ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Bu gün Azərbaycan orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biridir və kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar mövcuddur. Qafqazın ilk peyk operatoru olan "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2017-ci ildə ikinci telekommunikasiya (sayca üçüncü) və 2018-ci ildə çox yüksək ayırdetməyə malik olan ikinci müşahidə peykinin (sayca 4-cü) orbitə çıxarıld. Ekspertlərin qənaətinə görə, 2023-cü ildə Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə regional kosmik sənaye mərkəzinə çevriləcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir. Azərbaycan dünyanın sayı o qədər də çox olmayan kosmik klubuna da üzv olub. Bütün bunlar Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin göstəricisidir. Azərbaycan gələcəyə doğru inamla addımlayır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var. Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun".

### "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir"

Bu gün "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azərspace -1" peykin orbitə çıxarılmasının ardınca 2018-ci il sentyabrın 26-da Fransanın Qvianasında yerləşən Kuru kosmodromundan Azərbaycanın "Azerspace-2" peyki orbitə buraxıldı. Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqa təbrikində demişdir: "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək". Yerli və xarici mütəxəssislər o fikirdədirlər ki, 2023-cü ildə kosmik sənayenin inkişafı üçün çox gözəl imkanları olan Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir. Bütün bunlar Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi: "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var   Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun". "Azerspace-2" peykin orbitə çıxarılması ölkəmizin iqtisadi gücünə güc qatacaq. Çünki "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək və Azərbaycana 400 milyon dollar gəlir gətirəcək. Nəzərə almaq lazımdır ki, 2013-cü il fevralın 8-də orbitə çıxarılan "Azerspace-1" telekomunikasiya peyki 15 illik istisamar müddəti ərzində ölkəmizin iqtisadiyyatına 220 milyon ABŞ dolları gəlir gətirəcək. "Azersky" müşahidə peyki isə, ümumilikdə ölkəmizə 200 milyon avro gəlir gətirəcəyi proqnozlaşdırılır.

Azərbaycan ABŞ, Rusiya, Türkiyə, Fransa, İngiltərə, Yaponiya, Malayziya kimi kosmik sahədə qabaqcıl ölkələrin birləşdiyi dünya "kosmik klub"nun üzvüdür. Bu sahədə uğurlar daha da genişlənməkdədir. Yaxın vaxtlarda daha bir peykin orbitə buraxılmasına hazırlıqlar görülür. Bütün bunlar Yenilməz Sərkərdə, ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan tarix boyu heç vaxt indiki qədər güclü olmayıb" tarixi fikirinin real olduğunu bir daha təsdiqləyir.

**İ.ƏLİYEV**

# Ermənistanın düşünməyə vaxtı varmı?

## Yeni müharibənin baş verməməsi, "Yerablur" hərbi məzarlığının paytaxt İrəvanın içinə doğru genişlənməməsi üçün hələ ki, doğru seçim etməyə zaman tanınmaqdadır

Ermənistanın baş naziri Nikol Paşinyanın, eləcə də Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın, həmçinin hökumət rəsmilərinin gah sözdə "sülh", gah da digər yöndəki fərqli bəyanatları bir reallığı ortaya çıxarır - onlar ölkəni daha ağır və çıxılmaz situasiyalara doğru sürükləyirlər. Daha bir fakt budur ki, Ermənistanın aşkar və gizli havadarlarının da Azərbaycana qarşı müxtəlif səpkilərdə təzyiq cəhdlərini reallaşdırmağa çalışmaları, əslində, mövcud situasiyanın get-gedə gərginləşməsinə səbəb olmaqdadır. Misal üçün, bir müddət əvvəl Rusiyanın "status" məsələsini gündəlikdə saxlama, eləcə də hazırkı vəziyyəti gələcək nəsillərə saxlamaq səyləri, o cümlədən, Paşinyan iqtidarını devirmək üçün Ruben Vardanyan adlı milyarderi Qarabağa göndərməsi, öz siyasi çıxarlarını Azərbaycanın suveren əraziləri vasitəsi ilə həll etmək maraqları, Fransa senatında Azərbaycan əleyhinə qətnamənin qəbulu və həmin qətnamədə bütövlükdə dövlətimizin maraqlarına, ərazi bütövlüyünə qarşı irəli sürülən bəndlər, amerikalı ermənipərəst senator R.Menendez başda olmaqla demokratların yuxarı palata üzərindən ölkəmizə qarşı təzyiq göstərmək cəhdləri və rəsmi Tehranın "Ermənistanın təhlükəsizliyi - İranın təhlükəsizliyidir" tipli siyasi gəvəzələmə amilləri bu məcrada ilin sonuna qədər imzalanacağı deyilən zərif sülh perspektivlərini dalana dirəməkdədir.

### İlham Əliyev: "Əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik, əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir"

O da əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev hələ ötən ilin noyabrın 17-də Avropa İttifaqının Şərq tərəfdaşlığı üzrə xüsusi nümayəndəsi Dirk Şubeli qəbul edərkən bu kimi həssas məsələlərə öz sərt mövqeyini bildirmiş və kifayət qədər mühüm bəyanatlarını irəli sürmüşdü. Belə ki, ölkə rəhbərimiz nümayəndə heyətini qəbul edərkən ABŞ-ın dövlət katibi Entoni Blinkenlə telefon danışığı apardığını xatırladaraq bildirmişdi ki, onlar (yəni ermənilər) bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. SİTAT: "Onlar bunu nəinki deyir, o cümlədən, Praqada və Soçidə bunun altında imza da atırlar. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik".

Məhz bu baxımdan, sözügedən görüş zamanı diqqətçəkən daha bir məqam o olmuşdu ki, Ermənistan tərəfi bir tərəfdən ərazi bütövlüyümüzü tanıdıqlarını bəyan edir, digər tərəfdən isə təxribatçı siyasətlərini həyata keçirmək cəhdləri ilə prosesə xələl vururlar, bu vasitə ilə sülhün əldə olunması mümkünlüyünə maneələr yaradırlar. Son zamanlar atəşkəs rejiminin sürəkli pozulması da buna dəlildir. Bu baxımdan da dövlətimizin başçısı qeyd edib ki, bizə, yəni Azərbaycana Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. SİTAT: "Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır".

Daha bir məqam isə Vardanyan adlı Kreml layihəsi ilə bağlıdır ki, İlham Əliyev bu barədə də açıq və sərt şəkildə bəyan edib: "Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi Vardanyan kimi insanlarla yox". Bəli, artıq bu gün Vardanyan siyasi kuklaya dönüb və onun varlığı yoxluq kimi amillərə söykənməkdədir....

### Rəsmi Bakının qoyduğu bu müddət hər an başa çata bilər

Beləliklə, Bakının qoyduğu müddət hər an başa çata bilər. Ermənistan və havadarları həmin məqamı xüsusi ilə diqqətə almalı və Cənubi Qafqaz regionunda yarana biləcək sülhün yenidən müharibə ilə əvəzlənməsinə şərait yaratmamalıdırlar. Belə bir məqamda digər nüanslar da üzə çıxır: Sülh olmayacaqsa, müharibə faktoru qabarmağa başlayır. Rəsmi Bakı, ilk növbədə, Laçında gömrük yoxlama, yaxud nəzarət buraxılış məntəqəsini yerləşdirib. Buna baxmayaraq, Qarabağda qalan qanunsuz erməni silahlı birləşmələri Azərbaycan ərazilərini dərhal tərk etməyiblər. Üstəlik, Rusiya sülhməramlıları hələ də onların silah daşıdıqları maşınları müşayiət edirlər . Belə davam edərsə, onlara qarşı iri antiterror əməliyyatlarının keçirilməsi zərurətə çevriləcək. Hansı ki, Ermənistanın baş naziri Nikol Paşinyan indinin özündə də bəyan edir ki, guya Qarabağda Ermənistan silahlı qüvvələrinə məxsus hər hansı bir hərbi birləşmələr mövcud deyil və s. Ancaq antiterror əməliyyatlarından sonra, yəni erməni zinvorlarının sink tabutlarının haraya aparılacağından məlum olacaq ki, onlar hansı ölkənin terrorçularıdırlar. O cümlədən, həyata keçirilən antiterror əməliyyatlarının nəticəsində də sübut ediləcək ki, Ermənistan 44 günlük müharibədə aldığı sarsıdıcı zərbədən sonra da Azərbaycanın ərazilərində işğalçılıq siyasətini davam etdirib. Bunu Prezident İlham Əliyev də bəyan edib ki, hələ də işğal altında qalan ərazilərimiz var. Bu ərazilər yalnız Qarabağa deyil, həm də Qazax rayonunun 7 kəndinə və Naxçıvandakı Kərki kəndinə aiddir.



### Ermənistan əvvəl-axır dərk etməlidir ki...

Azərbaycanın əlində daha bir rıçaq var - Ermənistandan Qarabağa gedən qanunsuz kommunikasiya xətlərinin fəaliyyətlərinin dayandırılması. Məhz Ermənistanı Qarabağda bütün təsir vasitələrindən məhrum etdikdən sonra (qaz, işıq, internet) Bakı və İrəvan ikitərəfli əsasda və ya istənilən üçüncü tərəfin vasitəçiliyi ilə danışıqları davam etdirə bilərlər. Bununla belə, Ermənistan əvvəl-axır dərk etməlidir ki, Azərbaycanın atdığı addımlar yeni və indikindən də fərqli geosiyasi reallıq yaradacaq, əlbəttə ki, rəsmi Bakının xeyrinə! Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin yanvar müsahibəsində bildirdiyi kimi. SİTAT: "Bizim xoşniyyətli davranışımız əbədi olmayacaq və verdiyimiz təkliflər əbədi masa üzərində qalmayacaqdır".

Təbii ki, Azərbaycanın da öz növbəsində digər tələbləri qüvvədə qalmaqdadır. Məsələn, Ermənistanın Azərbaycan ərazilərini 30 il işğal altında saxladığını etiraf etməsi Bakının İrəvandan haqlı olaraq kompensasiya tələb etməsi ilə nəticələnəcək. Ermənistan ya tələb edilən müəyyən olunmuş miqdarı Azərbaycana təhvil verməli, yaxud bunu əraziləri vasitəsi ilə kompensasiya etməlidir. Yəni mümkün ehtimallar belədir - yeni tələblər kompensasiya, işğal faktının etiraf edilməsi və Ermənistana mümkün ərazi iddiaları ola bilər. Beləliklə, seçim Ermənistanındır və həmin seçimin edilməsinə çox az vaxt qalıb. Yeni müharibənin baş verməməsi, "Yerablur" hərbi məzarlığının paytaxt İrəvanın içinə doğru genişlənməməsi üçün hələ ki, doğru seçim etməyə zaman tanınmaqdadır. Ancaq verilən zaman da sürətlə ötüb keçir və Ermənistanın rəhbərliyi bu reallığı da əvvəl-axır dərk etmək məcburiyyətindədir. Vaxt, zaman isə dayanmır...

***Afət Tahirqızı***

# Gənclər Heydər Əliyevin zəngin irsini dərindən öyrənirlər

## *YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*

"Heydər Əliyev İli" çərçivəsində iyunun 19-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının gənclərlə növbəti görüşü keçirilib. Tədbirdə partiyanın Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər. Tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub. Sonra Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini diqqətə çatdırıb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini vurğulayan Zaur Muradov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının müstəsna önəmə malik olduğunu söyləyib. YAP Veteranlar şurasının üzvü, "91-lər"dən olan professor Sudeyf İmamverdiyev bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən danışıb. Bildirib ki, hər bir xalqın taleyində müstəsna rol oynayan, xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətlər var. Azərbaycan tarixində də məhz belə bir şəxsiyyət Ümummilli Liderimiz Heydər Əliyevdir. Heydər Əliyev Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarıb və ölkəmizə möhtəşəm nailiyyətlər qazandırıb. Professor qeyd edib ki, Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə, qalib ölkəyə çevirib.








YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev vurğulayıb ki, belə görüşlərin keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının gənclərə aşılanmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət müstəqilliyimiz məhz Ümummilli Liderin qətiyyəti, zəngin təcrübəsi, güclü iradəsi, xalqına bağlılığı sayəsində əbədi xarakter almışdır. O, gəncləri Heydər Əliyevin zəngin irsini dərindən öyrənməyə çağırıb. Sonda gənclərin sualları cavablandırılıb.

# Vətəndaşın dostu "DOST"

***Xalqımızın çoxəsrlik tarixində yardım etmək milli adət-ənənələrimizin əsas xəttini təşkil edib. Yardıma çatmaq, kömək olmaq isə zamanla əsl qonşu, yaxşı dost məfhumlarının formalaşmasına səbəb olub. Beləliklə də Azərbaycan xalqının sədaqətli dost kimi fərdi xüsusiyyəti başqa xalqlarla müqayisədə hər zaman üstünlük təşkil edib. Bu tarixi ənənə isə təbii ki, müasir cəmiyyətdə ümumilikdə vətəndaş rifahına xidmət edəcək başqa bir formada davam etdiriləcəkdi ki, bunu 5 il əvvəl ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin yaradılmasında gördük.***



## Azərbaycanın siması kimi...

Bütün çıxışlarında siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayandığını vurğulayan dövlətimizin başçısının 20 illik fəaliyyəti dövründə uğurlu sosial siyasətinin əsasını Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşdırılması təşkil edib. Sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsipinin qorunmasıdır. Prezident İlham Əliyev 2019-cu ilin may ayında DOST Agentliyinin 1 saylı "DOST" mərkəzinin açılış mərasimində demişdir: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzində öz əksini tapır- islahat, innovasiya, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etdirilməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək.




DOST Agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Artıq bu təşəbbüsün müsbət nəticələri özünü göstərir. "DOST" Azərbaycan vətəndaşının arzuladığı və arzularının gerçəkləşdiyi bir ünvandır. O ünvan ki, hər bir insan oraya doğma evi kimi yaxınlaşır və oradan böyük məmnuniyyətlə ayrılır. Çünki onu maraqlandıran, sosial həyatına xidmət edəcək bütün sualların cavabı elə onun rifahına hesablanıb.

Təhlil

## Əhalinin həssas qrupunun sadiq "DOST"u

İyunun 13-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olarkən bu Azərbaycan brendi ilə daha bir qürur duyduq. Çünki Mehriban xanım Əliyevanın fəaliyyətində əhalinin həssas qrupu daim diqqətdə saxlanılır, onlara xüsusi qayğı göstərilir.

Həmin tədbirdə verilən məlumatlar da söylədiklərimizi bir daha təsdiq etdi: Mərkəzin əsas məqsədi həssas əhali qruplarından olan şəxslər, o cümlədən şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etmək, onlara sosial-psixoloji dəstək göstərməkdir. Təxminən ilyarım əvvəl yaradılan Mərkəzdə hazırda 14 istiqamət üzrə 180-dən çox benefisiar təlim alır.

Azərbaycan və Türkiyənin birinci xanımlarının Mərkəzdəki audio-səsyazma, floristika və landşaft dizaynı, metal və ağac üzərində oyma, xalçaçılıq, toxuma və tikmə, keramika, musiqi, təsviri sənət studiyalarında keçirilən təlimlərlə, o cümlədən kitabxana ilə tanış olmaları, Mərkəzin təlimçiləri və təlim alanlarının, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləmələri, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olmaları və onlarla şəkil çəkdirmələri həssas qrupdan olan vətəndaşlarımıza göstərilən dövlət qayğısının növbəti təzahürü ilə yanaşı, "DOST"un sadiqlyini nümayiş etdirən amil idi.

## Sadiq və əsl dost kimi...

"DOST" mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 154 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihələrdəndir. Bu, 4 il öncə "DOST" mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevriləcəyini deməyə əsas verirdisə, bu gün tam əminliklə deyə bilərik ki, həqiqətən də belədir.

DOST Agentliyi mərkəzlər vasitəsilə "bir pəncərə" prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərmək imkanına malikdir. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 "DOST" mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub ki, bu da ölkə vətəndaşlarının hər birinin "DOST"un xidmətlərindən istifadə etməklə sosial qayğılarının həll olunması deməkdir.

"DOST"un həmçinin köməkçiləri də var. DOST Agentliyi tərəfindən "Könüllü DOST" proqramı üzrə 3 altproqram "Gənc DOST", "Gümüşü DOST" və "Virtual DOST" altproqramları icra olunur. DOST könüllüləri DOST mərkəzlərində dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verir.






Həyata keçirilən proqramlardan biri "Gənc DOST" altproqramıdır. Bu proqram 16 yaşından 29 yaşınadək olan gənclərin, o cümlədən əlilliyi olan şəxslərin vətəndaşlara xidmət sahəsində təcrübə qazanması, işgüzar vərdişlər əldə etməsi, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarının təməlinin qoyulması məqsədi daşıyır. Könüllülərin iki aylıq fəaliyyəti qiymətləndiriləcək onlara müxtəlif dərəcəli sertifikatlar təqdim olunur, fəaliyyəti yüksək qiymətləndirilən şəxslər üçün gələcəkdə DOST Agentliyi və DOST mərkəzlərində karyera qurmaq imkanı yaradılır.

Digər proqram "Gümüşü DOST" altproqramı pensiyaçıların cəmiyyətə reinteqrasiyası, nəsillərarası təcrübə və bilik mübadiləsi, yaşlı şəxslərin asudə vaxtının aktiv təşkili və fəal yaşlanması məqsədi daşıyır.

"Virtual DOST" altproqramı çərçivəsində isə təhsil, təlim, tədqiqat, PR, konsaltinq və s. sahələr üzrə verilən tapşırıqların onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilməsi nəzərdə tutulur. Həmin altproqram əsasında müvafiq sahələr üzrə peşəkar mütəxəssislər, ictimai xadimlər, habelə əlilliyi olan şəxslər kompüter, planşet və ya smartfondan istifadə etməklə ofis və evlərində könüllü kimi fəaliyyət göstərmək imkanına malik olur, müxtəlif mikrolayihələr həyata keçirirlər.

Vətəndaşların rifah halının yaxşılaşdırılmasına xidmət edən və onların məmnunluğunu təmin edən DOST Agentliyi və "DOST" mərkəzi məmur özbaşınalığının, korrupsiyanın qarşısını alır, vətəndaşların vaxta qənaət etmələrini təmin edir. Bu layihədə reallaşdırılan könüllülər proqramı gələcəyimizi etibar edəcəyimiz gənclərin həyatda özlərinə yer tapmalarında, karyeralarını qurmalarında, layiqli vətəndaş kimi yetişmələrində önəmli rol oynayır.

Beləliklə, "DOST"u həm köhnə dostlarına sadiq, həm də gənc dostlarını ətrafında birləşdirməklə onların gələcəyini təmin edən əsl dost adlandırmaq olar.





***Mətanət Məmmədova***

**2000-ci ildə BMT-nin Baş Məclisinin 20 iyun tarixini Ümumdünya Qaçqınlar Günü kimi müəyyən edən xüsusi qətnamə qəbul etməsində əsas məqsəd evindən, elindən didərgin düşən qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat şəraitini diqqətdə saxlamaq, onların sayının artmasının qarşısını almaq olub. Statistik göstəricilərə əsasən, hazırda dünyada 15.4 milyon insan qaçqınlıq həyatı yaşayır və onların sayı artmaqda davam edir. Beynəlxalq Qaçqınlar Günü Azərbaycanda da hər il qeyd edilir. Bu isə heç də təsadüfi hal deyil. Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına məruz qalıb, tarixi torpaqlarına təcavüz edilib, nəticədə minlərlə soydaşımız qaçqına çevrilib.**

Sonuncu dəfə 250 min etnik azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovulub, Azərbaycana pənah gətirib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar".

Tarixin müxtəlif dönəmlərində azərbaycanlılar öz əzəli torpaqlarından uzaqlaşdırılmış, deportasiyaya məruz qalmışdırlar. XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib. "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var"- deyə dövlət başçısı bildirib. Tarixdən bəllidir ki, 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar.

## "GÜN GƏLƏCƏK VƏ QƏRBİ AZƏRBAYCANDAN OLAN SOYDAŞLARIMIZ, ONLARIN YAXINLARI, UŞAQLARI, NƏVƏLƏRİ TARİXİ DİYARIMIZ OLAN QƏRBİ AZƏRBAYCANA QAYIDACAQLAR"

Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atıblar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldublar. SSRİ Nazirlər Sovetinin bu qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktları olub. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki doğma torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq qovulub. Azərbaycanlıların hüquqları kobudcasına pozulub, onlara qarşı sərt repressiyalar həyata keçirilib.



# Tarixi torpaqlarımıza BÖYÜK QAYIDIŞ

### Prezident İlham Əliyev: "Əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"



"1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi", - deyən Cənab Prezident Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçilərinin, həm də onların sovet hökumətindəki havadarlarının dərhal hərəkətə keçdiklərini bildirmişdi: "Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm o vaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi".




1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. Bu hadisəyə, o cümlədən Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə Azərbaycan xalqının etirazı ona qarşı 1990-cı ilin yanvarında Sovet qoşunlarının yeridilməsinə, Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında kütləvi qırğınlarla səbəb olub. "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar."

Əlbəttə ki, Azərbaycan Prezidentinin qüdrəti və apardığı uğurlu xarici və daxili siyasət sayəsində Qərbi azərbaycanlıların da tarixi torpaqlarına qayıdacağı gün uzaq deyil. Ölkəmizin iqtisadi və sosial inkişafı, beynəlxalq nüfuzunun artması, xalqımızın rifahının yüksəlməsinə və daha gözəl gələcəyinin təmin edilməsinə xidmət edən dövlət siyasəti daha böyük uğurları bizlərə yaşadacaqdır.

## "AĞALI KƏNDİNİN TİMSALINDA HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI VƏ ÜMUMİYYƏTLƏ, HƏR BİR İNSAN BİZİM PLANLARIMIZI GÖRƏ BİLƏR"

Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi -Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə münaqişənin sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 822, 853, 874, 884 nömrəli qətnamələr qəbul etmişdir. Lakin Ermənistan bu qərarların heç birinə əməl etmədi. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarını azad etdi və ərazi bütövlüyünü bərpa etdi. Xalqımızın inamını özünə qaytaran, Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Zəfərimiz bütün dünyaya xalqımızı yenilməz bir xalq kimi təqdim edib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərizində düşməndən azad edildi.

Artıq Azərbaycan keçmiş məcburi köçkün ailələrinin azad edilmiş ərazilərə təhlükəsiz və etibarlı şəkildə geri qayıdışına başlayıb. Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızı daha da yaxınlaşdırır. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu şəhərin sakinlərini qoynuna aldı. Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyən Prezident insanlara, oraya qayıdacaq insanlara rahat şəraitin yaradılacağını bildirmişdi.

Ağalı kəndinə əhalinin köçürülməsindən sonra Talış kəndinə köç başladı. Ağalı və Talış kəndindən sonra əzəli torpaqlarımızın sahibləri olan laçınlıların da bir qismi öz yurdlarına qayıtdılar. Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı həyata keçirilən layihələrin həyat keçirilməsində bir daha özünü göstərir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır.

Göründüyü kimi, bütün hədəf və məqsədimiz aydındır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı, Azərbaycan ordusu 44 günlük müharibədə qələbə əzmini dünyaya nümayiş etdirdiyi kimi, qarşıya qoyduğu məqsədləri də uğurla reallaşdırır.

***Nəzakət ƏLƏDDİNQIZI***




# Bazar lövhələri: **qiymətlər necədir?**

### İdxal məhsullarında bahalaşma, yerli məhsullarda ucuzlaşma müşahidə olunur: bu nə ilə bağlıdır?

***İlin kənd təsərrüfatı məhsullarının bol olduğu mövsümünün başlaması bazarlara təsirsiz ötüşməyib. Əksər kənd təsərrüfatı məhsullarında bolluq və ucuzluq müşahidə olunur. Lakin idxal məhsullarında bahalaşma davam edir. Ümumiyyətlə, son illərdə Azərbaycanın istehlak bazarında davamlı qiymət artımı müşahidə olunur. Bəs bazarlarda, ərzaq mağazalarında müşahidə olunan tendensiyanın obyektiv və subyektiv səbəbləri nədir? Hansı məhsullar niyə ucuzlaşıb və ya əksinə bahalaşıb?***

İdxal olunan məhsullarda süni bahalaşma olduğu qeyd olunur, lakin əslində bunu süni bahalaşma adlandırmaq olmaz, tam təbiidir, xaricdən gətirilən məhsullarda bahalaşma olması təbiidir, lakin məsələ burasındadır ki, bəzi məhsullar dünyada ucuzlaşsa da, bizdə hələ də qiyməti yüksək olaraq qalır. Çünki idxal mallarının daşınma, gömrük xərcləri artıb. Elə də yerli ərzaq sənayesi məhsullarının qiymətlərinin artması son illərdə enerji daşıyıcılarının, suyun və sair xərclərin artması ilə bağlıdır. Bu halda idxalçıları və istehsalçıları qiyməti ucuzlaşdırmağa məcbur etməyin heç bir yolu yoxdur- heç kim məhsulunu maya dəyərindən aşağı satmaz- bundansa "dükanı" bağlayıb gedər.





Sadəcə, bu sahədə bir nəzarət olmalıdır ki, qiymətlər monopolist səbəblərdən ya da yaranmış vəziyyətdən sui-istifadə səbəbindən artmasın. Tutaq ki, məhsulun maya dəyəri 10 fazi artıbsa, qiyməti də 10 faiz artmalıdır, daha 30-50 faiz yox. Dövlət bunu tənzimləmək üçün kiçik və orta sahibkarlara müəyyən güzəştlər edə bilər, monopoliyanın qarşısını tam ala bilər və s.

Əlbəttə, hazırkı dövrdə qiymətləri tənzimləyən səbəblərdən biri də bazarın tələb-təklif məsələsidir. Bazarda qıt olan məhsullar bahalaşır, bol olanlar ucuzlaşır. Buna görə də dövlət yerli istehsalı olmayan və ya çox az olan məhsullar üzrə gömrük rüsumlarını azalda bilər ki, həmin məhsullara tələb təklifi üstələməsin və qiymət artmasın. Bundan başqa, yerli istehsalı dəstəkləmək üçün əlavə addımlar atıla bilər ki, yerli məhsul istehsalı çoxalsın. Son nəticədə bazarda bolluq və ucuzluq olar.

Lakin qeyd etməliyik ki, hazırda təkcə bəzi məhsulların bahalaşması yox, həm də bəzi məhsulların ucuzlaşması da müşahidə olunur. Məsələn, müşahidələrimizə əsasən deyə bilərik ki, meyvə-tərəvəz, süd məhsulları, paxlalılarda ciddi ucuzlaşma müşahidə olunur, amma ətin, yumurtanın, şəkər tozunun qiyməti bahalaşır.





Təbii ki, ucuzlaşan və ya bahalaşmayan məhsullar əsasən yerli istehsal məhsullardır. Yerli meyvə-tərəvəz bu il son dərəcə bol və ucuzdur. bahadır. Mövsüm meyvələrindən gilas, ərik, şaftalı, gavalı kimi meyvələrin qiyməti 1 manat ətrafındadır. Tərəvəzlərdən kartof, kələm 30-50 qəpik, soğan və çuğundur 70 qəpik, kök, turp, balqabaq, pomidor, brokoli kimi məhsullar isə 1 manat cıvarınındadır. Qoz, fındıq da kilosu 3-4 manat arasında satılır.

Yerli məhsullarda bahalaşma əsasən emal sənayesi qida məmulatlarındadır. Belə ki, kərə və bitki yağları, meyvə və tərəvəz konservləri, bəzi süd məhsulları, ət, kolbasa-sosiska məmulatları və s. bahalaşıb. İndi 15 manatdan aşağı kolbasa, 8 manatdan aşağı pendir, 16 manatdan aşağı kərə yağı (bunun da təbii kərə yağı olması şübhəlidir), 7-8 manatdan aşağı xama, şor, kəsmik yoxdur. Qoyun ətinin kiloqramı 17 manata çatıb.

Emal olunmuş yerli istehsal hazır qidalarda bəzi hallarda yerli mallar xarici mallardan bahadır. Amma normal məntiqlə yerli istehsal məhsullar heç bir halda xarici məhsullardan baha ola bilməz. Çünki nə qədər ucuz alınsa da, idxal məhsulların dəyərinə gömrük rüsumları, vergi ödənişləri, nəqliyyat xərcləri və s əlavə olunur. Yerli istehsalçıların isə belə ödənişləri yoxdur. Bəs onda niyə yerli emal məhsulları bahadır? Hesab edirik ki, bunun səbəbi istehsalçıların xərclərinin artması və bəzi sahələrdə monopoliya meyilləridir.

Hazırda yerli kənd təsərrüfatı məhsulları bol və ucuz olmasının əsas səbəbi, son illərdə dövlət dəstəyi ilə salınan çox saylı bağların, tarlaların məhsul verməyə başlaması, bu il yağıntıların bol olması, sərhədlərin bağlı olması nəticəsində ixraca gedən məhsulların azalmasıdır. Maraqlıdır ki, yerli meyvə-tərəvəz sahələrdə çox ucuz alınır, amma paytaxtda bazar-dükanda 2-3 qat baha satılır. Çünki hazırda bazarlarda yerləri alverçilər tutub və fermerlər ora girə bilmir. Nəticədə istehsalçı uduzur, istehlakçı uduzur, qazanan yalnız dəllallar olur.

Uzun illərdir təklif edirik ki, ölkədə məhsul bolluğu və ucuzluq yaratmaq üçün sadə yol var- Aqrar nazirlik bütün şəhərlərdə daimi yarmarkalar təşkil etməli və məhsul istehsal edən kəndliləri, fermerləri ora maneəsiz və pulsuz buraxmalıdır. Bu halda bazarda ucuzluq və bolluq olar. Məhsulunu rahat və normal qiymətə sata bilən kəndli daha çox əkib-becərəcək.

Azərbaycanın aqrar sahədə həm daxili tələbatın ödənilməsi, həm də ixrac potensialı genişdir. Nəzərə alsaq ki, digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Aqrar sahənin inkişafı o qədər də böyük vəsait tələb etmir, sadəcə müəyyən stimullaşdırıcı tədbirlər görülməli, praktik əngəllər, monopoliya halları aradan qaldırılmalıdır. Bunu etsək, hazırda 50 faiz civarında olan idxaldan asılılığımız minimuma düşər, ərzaq təhlükəsizliyimiz təmin olunar.

Dövlət tərəfindən bu məqsədlə milyardlarla vəsait ayrılır, sadəcə həmin vəsaitlərin effektiv idarə edilməsinə ehtiyac var. Bu sahədə kompleks proqramlar hazırlanmalı, vergi güzəştləri tətbiq edilməli, ərzaq istehsalı ilə məşğul olan kiçik və orta sahibkarlara güzəştli və uzunmüddətli kreditlər ayırmaq, sahibkarların işinə yersiz müdaxilələri ləğv etməkdir.

Əgər bu tədbirlər effekltiv şəkildə həyata keçirilsə, bunun ölkəmizin ərzaq təhlükəsizliyinin tam təmin etməsi ilə bərabər, həm də iqtisadi artıma və əhalinin sosial rifahının yüksəlməsinə nail olunar.

***Elçin Bayramlı***

# Zəfər yolu üzərində yerləşən kənd

## Dövlət başçısının Sərəncamına əsasən, "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu elan edilib



Çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngin olan Azərbaycan ərazisində 6 mindən artıq tarix və mədəniyyət abidəsi dövlətin mühafizəsindədir. Ölkəmizdə dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir. Əsrlərin sınağından çıxmış, təbii təsirlərə məruz qalaraq qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılıb və bu davam etməkdədir. Son illər ərzində ölkəmizdə "Yanardağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu, "Atəşgah məbədi" dövlət tarix-memarlıq qoruğu, "Keşikçidağ" dövlət tarix-mədəniyyət qoruğu və "Xınalıq" dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu yaradılıb. Bütün bunlarla yanaşı, "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu, o cümlədən Şirvanşahlar sarayı kompleksi və Qız qalası, "Qobustan" dövlət tarixi-bədii qoruğu UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilib.

### TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ TOXUNULMAZLIĞI TƏMİN EDİLİB

"Qobustan" dövlət tarixi-bədii qoruğunun yüksək əhəmiyyəti nəzərə alınaraq, "Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında" Azərbaycan Prezidentinin məlum Sərəncamı ilə "Qobustan" dövlət tarixi-bədii qoruğuna milli qoruq statusu verilib. Qobustan milli tarix-bədii qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilib və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılıb. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. "Qala" dövlət tarix-etnoqrafiya qoruğunun ərazisində Heydər Əliyev Fondu tərəfindən yaradılan "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi Azərbaycanın tarixi keçmişini qoruyub saxlamaqla yanaşı, qoruğun turizm mərkəzlərindən birinə çevrilməsinə imkan yaradıb. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, Yanardağ və Atəşgaha gələn turistlərin əksəriyyətinin hər iki qoruğa girişə imkan verən bilet aldıqları nəzərə alınsa, ümumilikdə 2022-ci ildə "Yanardağ" və "Atəşgah"a gələn turistlər bilet üçün 1 milyon 271 min 298 manat ödəyiblər. Şəkidəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq qoruğunu isə ötən il ərzində 141 mindən çox turist ziyarət edib.

Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, o cümlədən Bakı şəhərində "Şirvanşahlar Sarayı Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" alban məbədi, "Aşağı Karvansaray", "Şəki-xanovların evi", Quba rayonunun Xınalıq kəndində Əbu-Müslüm və Xıdır Nəbi məscidləri, Naxçıvan şəhərində "Möminə Xatun", Şərur rayonunda "Qudi-Xatun" türbələri, Culfa rayonunda "Xanəgah" memarlıq kompleksi, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini mədəni abidə kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb.

"Kiş" Tarix-Memarlıq Qoruğu Şəki şəhərinin Kiş kəndini əhatə edir. Qoruq 2003-cü ildən rəsmi fəaliyyət göstərir və 215 ha əraziyə malikdir. Qoruğun əsas fəaliyyət istiqamətləri qoruq ərazisində dövlət nəzarətini həyata keçirmək, tarix və mədəniyyət abidələrinin mühafizəsini və toxunulmazlığını, eləcə də qoruğun inkişafını təmin etmək, təbii landşaftı qoruyub saxlamaqdır. Qoruğun ərazisində Qafqazın ən qədim məbədi - Kiş Alban məbədi yerləşir. 2 min il yaşı olan Kiş Alban məbədi yalnız Azərbaycanda deyil, bütün Qafqazda ən qədim apostol məbədi sayılır. Bu məbəd alban abidələri içərisində xüsusi statusa malikdir. Məbəd həm memarlıq abidəsi kimi, həm də tarixi abidə kimi dəyərlidir. Məbədin əsrlər boyu yerli sakinlər tərəfindən ziyarətgah kimi istifadə olunması onun müasir dövrədək salamat qalmasına səbəb olub.

### ZƏNGİN TƏBİİ POTENSİALA VƏ EKOLOJİ RESURSLARA MALİK KƏND

Azərbaycan xalqının böyük keçmişini özündə təcəssüm etdirən tarixi yaşayış məntəqələrindən biri Qafqaz Albaniyasının qədim irsinə aid mədəniyyət abidələrinin mövcud olduğu Tuğ kəndidir. Burada Qarabağ bölgəsinin ənənəvi memarlıq üslubuna xas dekorativ elementlərlə işlənmiş yaşayış evləri, bulaqüstü tikililər, sənduqə tipli qəbirlər və məbədlər vardır. Tuğ kəndi eyni zamanda zəngin təbii potensiala və ekoloji resurslara malikdir. Şuşa şəhərinə aparan Zəfər yolu üzərində yerləşməsi kəndin turizm baxımından inkişaf perspektivini də artırır. Xocavənd rayonu Tuğ kəndinin tarixi əhəmiyyətini nəzərə alaraq, ətraf ərazilərdə mədəni və təbii irsin kompleks şəkildə qorunması, habelə burada turizmin inkişaf etdirilməsi məqsədilə "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması haqqında Azərbaycan Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Xocavənd rayonunun Tuğ kəndinin tarixi ərazisi "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu elan edilib. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində Qoruğun sərhədlərini və mühafizə zonasını müəyyənləşdirib təsdiq edəcəkdir. Qoruğun fəaliyyəti ilə bağlı tələb olunan zəruri xərclər Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirəcək.

Tuğ kəndi 31 oktyabr 1991-ci ildən 9 noyabr 2020-ci ilə kimi Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olub. Tuğ kəndi 9 noyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib. Tuğ kəndində işğala qədər əhali üzümçülük, taxılçılıq, tərəvəzçilik, baramaçılıq və heyvandarlıqla məşğul olub. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana fəaliyyət göstərib. Məlumat üçün qeyd edək ki, Tuğ sözü bir sıra müasir türk dillərində və o cümlədən, Azərbaycan dilinin Şuşa və Qubadlı şivələrində bayraq mənasını daşıyır. Tuğ etnotoponimi Tuq məşhur qıpçaq tayfalarından birinin adı ilə bağlıdır. Azərbaycanda üç Tuğ kəndi, Tuğ çayı, Tuğ dağı və Tuğ yurdu əraziləri məlumdur. Şimali Qafqazda da Tuq, Tuk, Tok, Tukdaq, Tukovo və s. kəndlər vardır.

### TARİXİ TİKİLİLƏR ƏNƏNƏVİ MEMARLIQ ÜSLUBUNDA BƏRPA VƏ KONSERVASİYA OLUNACAQ

İşğaldan azad olunan digər ərazilərimiz kimi, Tuğ kəndi də yeni həyatına qədəm qoyur. Tuğda turizm konseptual yanaşma çərçivəsində üç istiqamətdə - tarixi-memarlıq üslubunu qorumaqla mədəni turizmin inkişaf etdirilməsi, təbiət resurslarından səmərəli istifadə edib ekoturizm və "yaşıl destinasiya" konseptində turizm sənayesinin inkişaf etdirilməsi və aqroturizm resurslarından istifadə etməklə dayanıqlı və icma əsaslı turizm inkişaf konsepsiyası üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulub. İlk mərhələdə Tuğ kəndində keçmiş məktəb binası olmuş yaşayış korpusunun konservasiyası həyata keçiriləcəkdir. Kəndin tarixi memarlığı dərindən öyrənildikdən və kifayət qədər yerli memarlıq üslubunda elmi-tədqiqat və elmi təhlillər, praktiki təcrübə qazanıldıqdan sonra bu abidənin bərpası layihəsi həyata keçirilə bilər. Çünki Tuğda ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər açıq-aşkar vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazisinin abadlaşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, tarixən şərabçılıq destinasiyası kimi tanınan Tuğ kəndi Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə məşhur olub. Şərab zavodunun ümumi sahəsi 1300 kvadratmetrdir və onun ətrafındakı 850 kvadratmetrlik sahənin abadlaşdırılması nəzərdə tutulur. Zavod üçün müasir turizm konsepti tətbiq ediləcək. Belə ki, bura yalnız şərab istehsal edilən yer deyil, həmçinin Tuğ bölgəsində tarixən mövcud olmuş şərabçılıq ənənəsinin təbliğ olunduğu məkana çevriləcək. Kompleksin tərkibində müxtəlif tədbir və festivalların keçirilməsi üçün çoxtəyinatlı məkanlar olacaq. Tuğ kəndində tarixi tikililər, küçələr, hasar və darvazalar ənənəvi memarlıq üslubunda bərpa və konservasiya olunacaq. Görüləcək işlərin planına, həmçinin Tuğ ərazisində mövcud tarixi bulaqların bərpası, küçə boyunca hasar və tikililərin təmiri də daxildir.

Artıq öz torpaqlarına sahib olan Azərbaycan işğaldan azad olunan ərazilərimizi, o cümlədən dini-tarixi abidələri yenidən qurur, təmir və bərpa olunur.

*Zümrüd BAYRAMOVA*

---



# Mədəniyyət qıtlığı

**MƏTANƏT**

***Dünya müasirləşdikcə, nədənsə bəzilərimiz bundan bəhrələnə bilmirik ki, bilmirik. Yəni bir həqiqət də var ki, mədəniyyət daxildən gələn bir prosesdir, əslində bunu müasir dünya ilə bağlamaya da bilərik. Lakin bəzi hallarda insan özü nə olursa-olsun, lakin ətrafındakıları görmək, dərk etməklə həyatını qurmalı, davranışını müəyyənləşdirməlidir. Lakin təəssüflər olsun ki, hazırda bəzi insanlar arasında mədəniyyət qıtlığı yaşanır.***

Şəhərimizdə gözəl parklar salınıb. Həqiqətən də baxdıqca göz oxşayır bu parklar. Hər cür şərait yaradılan, bizlərin istirahəti üçün hər bir kiçik detal düşünülən parklara artıq havaların istiləşdiyi üçün yüzlərlə insan üz tutur. Gəlin, görək, yüzlərlə insanın hamısı bu parklardan eyni mədəniyyət çərçivəsində istifadə edirlərmi? Əsla. Çünki elə insanlarla qarşılaşırsan ki, həqiqətən də düşünürsən ki, yaradılan bu gözəlliklər bəzilərimiz üçün haramdır.

Bu günlərdə gördüyüm mənzərələr yuxarıdakıları söyləməyə əsas verir. Hansı parka gedirsən-get, orada bu mədəniyyət qıtlığı yaşayan insanlarla rastlaşacaqsan. Baxmayaraq ki, addımbaşı tullantı qabları qoyulub, baxırsan ki, gənc oğlan, gənc qız oturub oturacaqlarda, tumu çırtlayıb qabığını ayaqlarının altına tökürlər. Eləcə də dondurma kağızlarını. Hansı ki, əllərini uzatsalar, tullantı qablarına çatar.

Çox tez-tez rastlaşdığımız bu mənzərələr, sözün həqiqi mənasında, adamın ürəyini sıxır. Birincisi ona görə ki, düşünürsən ki, bu tullantıları yerə atanlar, ilk növbədə, insanlıqdan məhrum olmaq üzrədirlər. Çünki əllərindən süpürgə-xəkəndaz düşməyən təmizlik işçilərini görmürlər. Görmək nədir, onların çəkdikləri əziyyət barədə düşünmür, zəhmətlərinə dəyər vermirlər. İkincisi, özlərini hörmət hissi məhv olmaqdadır. Bir insan necə gözəl bir parkda əyləşib tum çırtlayıb, qabığını ayağının altına ata bilər? Bu, böyük mədəniyyətsizlik və haqsızlıqdır.

Üçüncüsü, fikirləşirsən ki, bu adam görəsən evində də bu hərəkəti edir? Edirsə əgər, belələrinə mədəniyyətsiz yox, vəhşi adı vermək daha doğru olardı.

Adamın bu gözəl parklara həqiqətən heyfi gəlir. Görəsən bəzilərimizin nə üçün gözəllikləri görən gözümüz vaxtından əvvəl korlaşır? Nə üçün yaradılanların qədrini bilmirik? Nə üçün ətrafımızdakı hər şeyin bizə verilən dəyər olduğunu anlamırıq?

Çünki mədəniyyət qıtlığı böhranına tuş olmuşuq. Nə qədər ediriksə, bəzilərimiz mədəniyyətlə ayaqlaşa bilmirik.

***Nə etməli? İnsanların hər birinin başına bir nəzarətçi qoyulmalıdır? Yoxsa hər kəs özü özünün nəzarətçisi olmalıdır?***

Hələ qarşıda uzun bir yay fəsli var. Havalar sərinləşənə qədər parklardayıq. Gəlin, özümüzə hörmət etməsək də, bu parkları yaradanlara, onların təmizliyinə hər dəqiqə nəzarət edənlərə hörmət qoyaq. Bəzən düşünəndə və görəndə ki, o parkları təmizləyənlər ata-analarımızdan da yaşlı insanlardır, heç olmasa, bu an bir qədər mədəni olmağa çalışaq. Parklar bizim istirahətimizi necə təmin edirsə, gözəlliyi, təmizliyi ilə mənəvi dünyamıza töhfə verirsə, bizim də vəzifəmiz onların təmizliyinə, qorunmasına töhfə verməkdir. Bunu unutmayaq!

# Dayanıqlı sülh və təhlükəsizliyin təmini prioritetdir!



Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də ATƏT Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelti qəbul edərkən dövlətimizin başçısı Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə keçirilən "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransın əhəmiyyətini vurğulayıb. ATƏT regionunda təhlükəsiz əməkdaşlığın inkişafı və sabitliyin qorunması üzv ölkələrin tərəqqisinə, xalqların milli maraqlarına xidmət edir. Regionda daha ədalətli, davamlı və təhlükəsiz inkişafın təmin edilməsi üçün qarşıda duran hədəflər nəzərdən keçirilməlidir. Müasir dövrdə yaşıl iqtisadiyyat qlobal və yerli səviyyədə sosial-iqtisadi tərəqqinin və ətraf mühitin mühafizəsinin təminində olduqca əhəmiyyətlidir. Ekoloji təhlükəsizliyin təmin olunması və ətraf mühitin çirklənməsinin minimuma endirilməsi üçün mütərəqqi üsulların tətbiqi mühüm amillərdəndir. Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər zəruri hesab olunur. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

**BEYNƏLXALQ SƏYLƏR ARTIRILMALIDIR**

Ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməsi mövcud problemlərin həllində önəmlidir. Ekoloji problemlərin daxili potensial imkanlardan istifadə etməklə aradan qaldırılması ilə yanaşı, ətraf mühitdə baş verən neqativ dəyişikliklərin nəticələrinin qlobal səviyyədə həlli istiqamətində beynəlxalq səylərin artırılması vacib məsələrdəndir.

Nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza səfərinin, orada aparılan işlərlə yerində tanış olmalarının önəmini qeyd edən Prezident İlham Əliyev hazırda həmin ərazilərimizdə genişmiqyaslı bərpaquruculuq işlərinin həyata keçirildiyini diqqətə çatdırıb. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalının dağıdıcı nəticələri ilə yaxından tanış olacaqlar. Həmçinin "Ağıllı kənd" Konsepsiyası əsasında yenidən salınan Ağalı kəndi, dəmir yolu infrastrukturu və "Azəripıq" ASC-nin "yaşıl enerji" obyektləri ilə tanış olacaqlar.

Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə məhz Azərbaycanın çıxış etdiyini vurğulayıb. Dövlətimizin başçısı son dövrlərdə iki ölkənin xarici işlər nazirləri səviyyəsində sülh müqaviləsinin mətni üzrə Vaşinqtonda aparılmış müzakirələri, həmçinin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə özünün Ermənistanın baş naziri ilə keçirdiyi görüşlərini qeyd edib, qarşıdan gələn dövrlərdə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərin olacağını bildirib.

**CƏNUBİ QAFQAZ MODELİNİN YARADILMASI TƏŞƏBBÜSÜ AZƏRBAYCAN TƏRƏFİNDƏN İRƏLİ SÜRÜLÜB**

Prezident İlham Əliyev Azərbaycanın təqdim etdiyi 5 prinsip, xüsusilə, dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı şəkildə tanınması əsasında ölkəmizin sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan, Gürcüstan və Ermənistanın eyni platformada bir araya gətirilməsi və inteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsü məhz Azərbaycan tərəfindən irəli sürülüb.

Dövlət başçımız İkinci Qarabağ müharibəsindən sonra istər Soçidə, istər Brüsseldə, o cümlədən iştirak etdiyi bütün beynəlxalq səviyyəli tədbirlərdəki çıxışlarında verdiyi müsahibələrində regionda təhlükəsizliyin təmin olunması üçün iki ölkə arasında münasibətlərin normallaşmasının, ölkəmizin 5 baza prinsipi əsasında sülh təklifinin dəstəklənməsinin vacibliyini vurğulamışdır.

Hazırkı dövrün əsas məsələsi Azərbaycan-Ermənistan münasibətlərində yeni səhifənin açılması üçün sülh müqaviləsinin imzalanması, regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsidir. Azərbaycanın respublikasının irəli sürdüyü prinsiplər beynəlxalq hüquqa tamamilə uyğundur və bu əsasda normallaşmaya nail olmaq mümkündür.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Masallıda "Qurtuluş" yürüşü keçirilib




Yeni Azərbaycan Partiyası Masallı Rayon Təşkilatının, Masallı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı, Masallı Rayon İcra Hakimiyyətinin, Azərbaycan Atletika Federasiyasının, Bakı Marafon Klubunun və "Masallı Gənclər Evi" sosial xidmət müessisəsinin dəstəyi ilə Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi və 15 iyun - Milli Qurtuluş Günü münasibətilə "Qurtuluş yürüşü - 2023" adlı marafon keçirilib.




Marafonda Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, YAP rayon təşkilatının sədri Seyfəddin Əliyev, rayon sakinləri və qonaqlar iştirak ediblər.

Yürüş iştirakçıları rayonun Heydər Əliyev parkında yerləşən Masallı şəhər Uşaq-İncəsənət Məktəbinin qarşısından start götürərək Səfərəli Məmmədov, İntiqam Əsgərli küçələri, Bakı prospekti, Zərifə Əliyeva, Dadva küçələri, Heydər Əliyev prospekti, Qarabağ küçəsi marşrutu üzrə yürüşə başlayıb və sonda təyin olunan finiş xəttinə yaxınlaşıblar."Qurtuluş" yürüşünün mükafatlandırma mərasimi öncəsi Dövlət Himnimiz səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov çıxışında bildirib ki, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə ölkəmizin hər yerində olduğu kimi Masallıda da silsilə yubiley tədbirləri keçirilir: "Ümummilli lider Heydər Əliyevin bizlərə miras qoyduğu müstəqil dövlət siyasəti Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərini əmin edirik ki, bütün soydaşlarımız kimi masallılar da bu qətiyyətli siyasi xəttə sadiqdirlər..."

Rayon rəhbəri əlavə edib ki, bayram günlərinə təsadüf edən bu möhtəşəm tədbir rayonumuzun istər idman, istərsə də ictimai-siyasi həyatında əhəmiyyətli olduğu qədər bütün masallılar üçün bayrama çevrilib."Sağlam bədəndə sağlam ruh olar" sözləri ilə çıxışını yekunlaşdıran RİH başçısı bir daha marafon qaliblərini təbrik edərək qeyd edib ki, bu tədbirə qoşulan hər kəs qalibdir. YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Sevda Mirzəyeva, Bakı Marafon Klubunun təsisçisi və rəhbəri Firdovsi Kərimov, Tunis dünya qran-Prisinin (2019) qızıl mükafatçısı Elşən Quliyev və başqaları xalqımızın qürur və şərəf günü kimi Azərbaycan tarixinin ən şanlı səhifələrindən olan 15 iyun - Milli Qurtuluş Günü münasibətilə marafon iştirakçılarını və qalibləri təbrik edərək tədbirin təşkilatçılarına, tərəfdaşlıq edən bütün qurumlara minnətdarlıqlarını ifadə ediblər.Bayram əhval-ruhiyyəli tədbirdə "Halay" folklor kollektivinin çıxışı alqışlarla qarşılanıb.

Marafonda fərqlənənlər təşkilat komitəsi tərəfindən müvafiq dərəcəli medal və diplom, eləcə də təşəkkürnamə və qiymətli hədiyyələrlə təltif ediliblər.

# "Azərbaycan erməni silahlılarını ərazisindən təmizləməsinə başlamalıdır"

"İlk dəfə deyil ki, Xankəndi ətrafında erməni terrorçuları rus kontingentin gözü qarşısında hərbi təlimlər keçir. Yəni əvvəllər də belə hallarla rastlaşmışıq və indi də rastlaşırıq". Bunu hərbi ekspert Ədalət Verdiyev "Səs" qəzetinə açıqlamasında deyib.



Onun sözlərinə görə, bu kimi halların qarşısının alınması artıq ciddi bir zərurətə çevrilib: "Qarabağa daxil olduqları gündən indiyə qədər rus kontingent burada erməni silahlı birləşmələrin və erməni terrorçularının mövcudluğuna zəmanət verən tək qüvvə olaraq indi də qalmaqdadır. Başqa sözlə desək, rus kontingent ərazisində olmasaydı, orada indi erməni silahlı da yox idi və yaxud da rus kontingent oradan çıxarıldığı gün erməni silahlıları da silahı yerə qoyub Azərbaycana təslim olacaqlar. Görünən odur ki, nə erməni silahlılarını ruslar oradan təmizləmək istəmir, nə də Ermənistan hakimiyyəti həmin özünə aid olan qüvvələri həmin ərazidən çıxarmaq niyyətində deyil. Ermənistanın siyasi liderləri Qarabağ Azərbaycandır və bizim ərazilərimizin 86,6 min kvadrat kilometr olduğunu desə də, hələ də özünə aid silahlıları Qarabağda saxlamaqla bu bəyanatlarının qeyri-səmimi olduğunu da ortaya qoyur. Belə olan halda Azərbaycan tərəfi rus kontingentinə erməni silahlılarını ərazisindən çıxarmaq üçün çox da uzun olmayan bir neçə həftəlik zaman verməlidir və bu zaman çərçivəsində rus kontingent bizə təqdim etdiyi qrafik əsasında ərazilərimizi erməni silahlılarından təmizləməlidir. Əgər bu hal baş verməyəcək, o zaman Azərbaycan öz imkan və potensialı hesabına erməni silahlılarının ərazisindən təmizləməsinə başlamalıdır. Sərhəd keçid məntəqəmizi Laçın ərazisində yerləşdirildikdən sonra sərhədlərimiz tam bərpa olunandan sonra belə bir fəaliyyətlərin həyata keçirilməsi gözlənilən idi və bu, ən yaxın mümkün zamanda həyata keçiriləcək. Buna kimsənin şübhəsi olmamalıdır".

*GÜLYANƏ*

# Ermənistana baha başa gələcək TƏHLÜKƏLİ MANİPULYASİYALAR

**Çarəsiz siyasi avantüristlərin sözlərinə inanmaq istəyi erməni xalqına çox baha başa gələ bilər. Əslində, həmin avantüristlərin bu vaxta qədərki oyunlarının qurbanına çoxdan çevrilən haylar yetərincə dərs almalı idilər və görməli idilər ki, kimlərinsə manipulyasiyaları onlar üçün ağır nəticələrdən başqa heç nə vəd etmir. "Böyük Ermənistan" kimi qondarma, uydurma ideyaları ortaya atan avantüristlər erməni xalqına məşəqqətdən, əzabdan, insan tələfatından, rəzalətdən, səfalətdən başqa heç nə gətirmədilər və bu reallığı haylar nə qədər tez anlasalar, qəbul etsələr təhlükəli manipulyasiyaların fəlakətindən bir o qədər də tez yaxa qurtara bilərlər.**




Qeyri-sabit bir ölkədə, qeyri-stabil bir vəziyyətdə olan ermənilərə heç kim, xüsusən də, avantüristlər gələcəkləri barədə zəmanət verə bilməzlər. Onların nəinki belə bir imkanları, heç belə bir niyyətləri də yoxdur. Xüsusən də, qlobal dünyanın özündə belə qeyri-sabitliyin mövcud olduğu şəraitdə avantüristlərin oynadıqları oyunlar nəinki ermənilər üçün təhlükəlidir, eyni zamanda cinayətdir. Bu cinayətlərin isə bütövlükdə erməni xalqına, erməni cəmiyyətinə çox ağır və baha başa gələcəyi indidən bəllidir. Artıq haylar görməlidirlər ki, bütün dünyaya səpələnən soydaşları, diasporları, erməni lobbisi belə çarəsiz durumdadır və belə bir vəziyyətdə hansısa avantüristin ağlına gələni etməsi, öz mənafeyi naminə təhlükəli manipulyasiyalara əl atması onlar üçün dəhşətli fəlakətlər, acınacaqlı sonluq vəd edir.

Hərdən erməni cəmiyyətində Rusiya bazasının ölkədən çıxarılması, ruslara qarşı kəskin mövqe nümayiş etdirmək tələbi ilə çıxış edənlər ortaya atılıb suyu bulandırmaq istəyirlər. Mütəmadi şəkildə Azərbaycanla sərhəddə vəziyyəti çətinləşdirən təxribat xarakterli, hətta cinayət xarakterli əməllərə rəvac verənlər öz xalqı üçün heç nə əldə etmək niyyətində görünmürlər, onların işi elə su bulandırmaqdır ki, nəticəsi yenə də haylar üçün ağır olur. Çünki belə bulanıq suda istədiyi kimi hərəkət edəcəyini planlaşdıranları qətiyyən erməni cəmiyyətinin, hayların taleyi maraqlandırmır. Əks halda, axmaq fikir və ideyaları dövriyyəyə buraxanda, yaxud təhlükəli addımlar atanda öz xalqını düşünərdilər. Məsələn, qondarma Təhlükəsizlik Şurasının keçmiş katibi Samvel Babayan bəyan edəndə ki, Ermənistan Rusiya bazasının və Rusiya sərhədçilərinin öz ərazisini tərk etməsini istəyir, bilməli və nəzərə almalı idi ki, bu çox təhlükəli bəyanatdır. Amma görünən odur ki, o heç kimi nəzərə almadan primitiv manipulyasiya etməyi daha üstün hesab edir və həmvətənlərinin, ölkəsinin fəlakətə düçar olub-olmayacağı heç vecinə də deyil. Sözsüz ki, vəziyyətin anormal olması kimsədə şübhə doğurmur və əslində, əgər söhbət Rusiyanın total və biabırçı asılılığından çıxmaq məsələlərindən gedirsə, bu, başqa məsələ, amma belə anormal vəziyyətdə Ermənistan üçün bu, çox təhlükəli sonluq deməkdir. Babayanın təbii ki, tamam başqa məqsədləri və planları var. O, qondarma rejimdə hakimiyyətə can atır və bunun üçün hər cür təxribata da hazırdır və vecinə də deyil ki, haylar üçün, bütövlükdə Ermənistan üçün bunun nə kimi acı nəticələri ola bilər. Eləcə də Azərbaycanla sərhəddə son təxribatı törədən avantüristlər nəticə etibarı ilə öz xalqı üçün vəziyyəti bir qədər də mürəkkəbləşdirmiş oldular. Təxribatlarının nə ilə nəticələnəcəyini onlar əvvəldən də yaxşı bilirdilər, amma öz istədiklərini etdilər və nəticəyə məhəl də qoymadılar.

Erməni avantüristlər ABŞ-ın Ukraynaya yeni hərbi yardım paketi ayırmasını, Ukraynaya 325 milyon dollar dəyərində silah və texnika nəzərdə tutmasını, köbud desək, hayların gözünə soxa bilərlər. Beləliklə də, həmin avantüristlər ruslara qarşı çıxmaqla, onların əleyhində olmaqla, Qərbin dəstəyini də vəd edə bilərlər, amma Ermənistana hansısa dəstək növbəti nağıldır və elə ən böyük manipulyasiyadır, hansı ki, buna istinad edib Azırbaycana qarşı da təxribatlara rəvac vermək hayları bir oyundan başqasına sürükləmək deməkdir. Ukraynaya əlavə hərbi yardım barədə iyunun 13-də Pentaqonun saytında dərc olunan bəyanatda bildirilməsinin ermənilərə, Ermənistana heç bir aidiyyatı yoxdur. Ukraynaya göndərilməsi nəzərdə tutulandan haylar qətiyyən özləri üçün presedent kimi istifadə edə bilməzlər. Qərb və Rusiya arasında olan dartışma, mövqe uğrunda gedən mübarizənin fonunda Ukraynaya ayrılanlardan, 2021-ci ilin avqustundan bəri Ukraynaya ayrılan 40-cı hərbi yardım paketindən Ermənistana bir "işıq" düşdümü? Düşmədi, deməli, bundan sonra da düşə bilməz və bunu avantüristlər hamıdan yaxşı dərk edə-edə oyunlarını, manipulyasiyalarını davam etdirirlərsə, bu manipulyasiyalarına, oyunlarına da kütlə alət olursa, haylar daha dəhşətli fəlakətlərə hazır olmalıdırlar. Çünki çarəsiz siyasi avantüristlərin sözlərinə inanmaq istəyi bütövlükdə erməni səmiyyəti üçün çox ağır sonluq vəd edir.

Son günlər sərhədyanı bölgədə erməni avantüristlərin təxribat və təhrikedici fəaliyyəti yenə də Ermənistan üçün arzuolunmaz nəticələr deməkdir. Təkcə bu son təxribatlara görə Azərbaycan daha ciddi addımlar ata bilər və bu addımların ermənilər üçün nə demək olduğunu özləri hamıdan yaxşı bilirlər, çünki dəmir yumruğun "dadı" yaddaşlarına həkk olunub. Məsələ burasındadır ki, səbr nümayiş etdirən Azərbaycan Ermənistan tərəfindən törətdiyi təxribatlara görə müvafiq cavablar gözləyir və hətta tələb edir. İstər Zəngilanda sərhədyanı bölgəyə ermənilərin artilleriya və PUA-larla hücumu, istərsə də Laçın buraxılış-nəzarət məntəqəsinə qarşı atılan atəşlər üçün Ermənistanın siyasi hakimiyyəti müvafiq cavab, izahat verməlidir. Çünki hər iki addım Ermənistan tərəfinin atdığı pozuculuq siyasəti sayılır, bunu avantüristlər, manipulyatorpar düşünüb planlaşdırsalar belə. Təbii ki, buna cavab olaraq Azərbaycanın Laçın yolunu bağlaması ən diplomatik adekvat addım sayılır. Məntəqəyə edilən hücumla bağlı məsuliyyəti Ermənistan öz üzərinə götürsə də, səbəbkarların, cavabdeh şəxslərin məsuliyyətə cəlb olunmasına qədər bu postun bağlı qalacağı göz önünə alınmalıdır. Real vəziyyət onu göstərir ki, hansısa avantüristlər öz mənafeləri, öz istəkləri naminə əl atdıqları manipulyasiyalar nəticədə Ermənistana baha başa gəlir.

Avropa İttifaqının mülki müşahidə missiyasını ərazisində yerləşdirəndən sonra Ermənistan tərəfindən daha çox təxribat və təhrikedici addımlar atıldığının şahidi oluruq. Belə görünür ki, həmin missiyadan da avantüristlər öz məqsədləri üçün istifadə edirlər. Halbuki bu missiyanın tamam başqa niyyətlə yerləşdirildiyi deyilirdi. Sözsüz ki, istənilən halda baş verənlər Azərbaycana öz ərazi bütövlüyü, eləcə də sərhədləri daxilində suveren hüquqlarını qorumaq üçün adekvat addımlar atmaq hüququ verir. Azərbaycan indi cərəyan edən hadisələr fonunda həm antiterror əməliyyatı həyata keçirə, həm qanunsuz silahlı birləşmələrə qarşı fəaliyyət göstərə, həm də qanunsuz silahlı dəstələrin yaradılmasına qarşı əməliyyat apara bilər. Bu, erməni avantüristlərin etdikləri qarşılığında ölkəmiz üçün adekvat addımlar atmaq imkanı deməkdir, hansıki nəticə ermənilər, ümumilikdə Ermənistan üçün arzuolunmaz sonluq deməkdir. Onu da diqqətə çatdıraq və xatırladaq ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi bölgələrdə, ermənilər qanunsuz hərbi birləşmələr yaradırlar və elə bu fakt özü ölkəmizin sözügedən bölgələrdə, Laçın yolunda, Zəngilan istiqamətində, ümumiyyətlə, Ermənistanla sərhədyanı bölgələrdə istənilən istiqamətdə hərbi əməliyyatlar keçirməyə qanuni, həm də hüquqi əsaslar yaradır. Nəzərə alsaq ki, 44 günlük müharibənin nəticələri erməni cəmiyyəti üçün nə demək olduğunu Ermənistan tərəfi anlayır, deməli, bu əməliyyatların da hansı nəticələrə səbəb olacağını haylar əvvəcədən dərk etməlidirlər.

Azərbaycanın dəfələrlə sülh prosesi istiqamətində atdığı addımlara, rəsmi Bakının təkliflərinə baxmayaraq, buna Ermənistan tərəfinin məhəl qoymaması vəziyyəti daha da gərginləşdirir. Sərhədlərin delimitasiyası, demarkasiyası məqsədi ilə ölkəmizin təklifləri, səyləri rəsmi İrəvan tərəfindən cavabsız qoyulursa, bu, artıq müvafiq addımların atılması üçün əsas yaradır. İrəvanın pozuculuq fəaliyyəti ilə bağlı hər dəfə ismarışlar verilsə də, buna məhəl qoyulmursa, vasitəçilər belə təsir edə bilmirlərsə, deməli, rəsmi Bakını ərazi bütövlüyünü qorumaq üçün və ölkə daxilində təhlükəsizliyin gücləndirilməsi, eləcə də təmin edilməsi üçün anti-terror hərbi əməliyyatlarınn keçirməsi zərurəti yaranır. Bunun isə Ermənistan üçün nə demək olduğunu haylar özləri daha yaxşı bilirlər və ən azından 44 günlük müharibədə gördükləri reallıqları dərk etmələri üçün kifayət edir. O baxımdan da haylar yaxşı bilməli və nəticə çıxarmalıdırlar ki, avantüristlərin təhlükəli manipulyasiyaları ümumilikdə Ermənistana baha başa gələ bilər və onların özləri üçün ağır nəticələr verər.

İnam Hacıyev

## "Ermənistan məğlubiyyətini etiraf edir"



"Son günlər Ermənistan və Azərbaycanın təmas xəttində yaşanan gərginlik və hər iki tərəfdən olan tələfat münaqişə tərəfləri arasında yekun sülh danışıqlarını pozmaq və təxribat törədərək tərəflər arasında etmadsızlığın yenidən güclənməsinə rəvac verə biləcək hadisələr olaraq qiymətləndirilə bilər". Bunu politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, ötən ayın 22- də Ermənistanın baş naziri rəsmi İrəvanın Azərbaycanın sovetlər dönəmindəki sərhədlərini tanıması ilə bağlı verdiyi açıqlama tərəfləri sülhə aparacaq danışıqlarda mühüm bir mərhələ kimi qəbul olundu: "Moskvanın moderatorluğu ilə mayın 25-də baş tutmuş görüşdə sülh danışıqlarının davam etdirilməsi ilə bağlı verilmiş açıqlamalar da uzun müddət qeyri-müəyyənlikdən sonra erməni tərəfinin nəhayət ki, yekun sülhə hazır olmasıı ilə bağlı təəssüratlar doğurdu. Ermənistanın Qarabağın təhlükəsizliyinə beynəlxalq təminatların verilməsi ilə bağlı, ilk növbədə, Qərbdəki havadarlarına olan müraciəti isə bir daha rəsmi İrəvanın mövqeyindəki qeyri-müəyyənliyin Qərbdən qidalanması ilə bağlı fikirlərin təsdiqi oldu. Belə ki, Paşinyan Vaşinqton görüşündən sonra erməni tərəfinin ABŞ-la razılaşdırdığı sülh müqaviləsinin mətni ilə bağlı sayca 4-cü dəfə redaktə edilmiş şərtlərə Azərbaycan tərəfindən hələ də cavab almadığı ilə bağlı açıqlama ilə çıxış etdi, erməni tərəfinin növbəti riyakarlığı ilə rəsmi Bakını Ermənistana ünvanlanmış tələbləri haqlı olaraq daha da sərtləşdirməyə sövq etdi, Azərbaycan Prezidenti yekun sülh müqaviləsinin imzalanması üçün zamanında özü tərəfindən irəli sürülmüş məlum 5 şərtin qüvvədə qaldığını təsdiq etməklə yanaşı bəyan etdi ki, Ermənistanın qeyri-konstuktivkiyi rəsmi Bakını Qarabağda antiterror əməliyyatları keçirməyə sövq edə bilər və bu, Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş haqqıdır, Prezident eyni zamanda xəbərdarlıq etdi ki, Azərbaycanı saxlaya biləcək regional qüvvə də yoxdur. İstisna deyil ki, rəsmi Bakının sərt addımlar atma ehtimalları erməni millətçilərini sərhəd xətti boyunca təxribat törədərək baş vermiş insidentə görə Azərbaycan tərəfini məsul tutmaq, məhz onun sülh danışıqlarına mane olmaq üçün təmas xəttindəki gərginlikdən əyləc mexanizmi kimi çıxış etmək mövqeyində olması ilə bağlı gerçəkliklərdən uzaq olan mənzərəni beynəlxalq təminatçıların diqqətinə çatdırmaqdan ibarət olub. Baş verənlər bir daha göstərir ki, erməni iqtidarı müstəqil siyasi qərar qəbul etmək imkanlarından məhrumdur, Qarabağakı separatçı rejimin rəhbərlərinin, nəhayət ki, təslim olması, separatçı rejimə tabe olan qeyri-qanuni hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı rəsmi Bakının tələbləri də Qarabağakı separatçı rejimi də belə bir təxribata getməyə sövq edə bilər. İndi orada separatçı rejimə kimlərin rəhbərlik edə biləcəyi ilə bağlı müxtəlif klan və geosiyasi qütblərə bağlı şəxslər arasında getdikcə güclənməkdə olan rəqabət də sərhəddəki toqquşmalara gətirib çıxarmış hadisələr sırasına aid edilə bilərlər".

GÜLYANƏ

# Uşaqları küçəyə qovun!




*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

**Həzrəti Əlinin çox gözəl bir kəlamı var: "Uşaqlar öz valideynlərindən çox zəmanəsinə oxşayır". Üzərindən əsrlər keçib, amma kəlam bu günümüzlə o qədər mükəmməl üst-üstə düşür ki, təəccüblənməmək olmur. İndi övladlarımız hər gün yeni forması ixtira edilən mobil telefonlar, planşetlər, noutbooklardakı oyunlara o qədər aludə olurlar ki, bəzən düşünürük: " görəsən bu onlayn oyunlar olmasaydı uşaq nə ilə məşğul olardı?". Aludəçiliyin günahkarı bəzən elə valideyn özü olur, çünki uşaqların küçədə oyun oynamasına bir çox valideyn qadağa qoyur.**



### Qoyun uşaqların dizi qanasın...

Ümumdünya Sağlamlıq Təşkilatının hesabatlarına görə, 5-17 yaş arasında olan uşaqların hər gün bir qayda olaraq idmana göndərilməsi, fiziki hərəkətə məcbur edilməsi vacibdir. Fiziki hərəkətə hər şey daxildir - rəqs etmək, kəndirdən atlanmaq, evdə təmizlik işləri görmək və yaxud sadəcə gəzmək. Həkimlər deyir ki, uşaqlarınıza yaxşılıq edin, onları virtual həyatdan qoparıb küçə oyunlarına yönləndirin, uşaqlar tər içində qalanadək futbol oynasın, velosiped sürsün, yıxılıb dizləri qanayanadək yaşıdları ilə qaçdı-tutdu oynasın.

Pediatr Pəri Həsənova deyir ki, sümük sağlamlığı insan həyatını qoruyan ən önəmli faktor olduğu üçün uşaqlarda lap körpə yaşlardan sümüklərin doğru inkişafına diqqət göstərmək vacibdir: "Sümüklər əvvəla orqanların qalxanıdır, onları qoruyur. Əzələləri saxlayan, bizi dik tutan, insan bədəni üçün vacib elementi - kalsiumu özündə cəmləşdirən də sümüklərdir. Sümük insanda 30 yaşınadək inkişafda olur. 30 yaşdan sonra sümüklərdə hər hansı bir problemin olması da o yaşadək doğru inkişaf etmədiyinin, bədənə doğru qulluq edilmədiyinin göstəricisidir. Sümüklərin körpə yaşdan D vitamini ilə qidalandırılması vacib faktordur".



### Aptekdən vitamin almayın, təbiətdən günəş alın

D vitaminin qidalar vasitəsi ilə qəbul edilməsi bir qədər az olduğu üçün alternativ yoldan istifadəni məsləhət görən müsahibimiz uşaqların valideynlərinə dəyərli məsləhətlər verdi: "Uşaqlar ən yaxşı D vitaminini balıqdan, yumurtadan, qaraciyərdən, ətdən ala bilər. Amma uşaqlara həddindən ziyadə ət, yumurta yedirmək düzgün deyil, çünki uşaq orqanizmi hər gün ət qəbul edərsə həzm sistemi problem yaşayar, eləcə də hər gün yumurta yeməsi doğru deyil, uşaqlara həftədə 2-3 dəfə yumurta vermək olar. Bəs belə olduğu halda D vitamini necə almalı? Əlbəttə ki, günəşdən. Uşaqlar üçün günəş şüaları olduqca faydalıdır, təbii ki, qızmar yay günlərində şüaların çox olduğu 12-17 aralığını istisna etməklə".

Həkim deyir ki, hazırda payız fəslində olmağımızın bir üstünlüyü də var ki, bu fəslin günəşi uşaqlara daha çox D vitamini qəbul etməyə imkan yaradır: "Ona görə də övladlarınızı hər gün gəzintiyə çıxarın, şərt deyil harasa xüsusi olaraq hazırlaşasınız, yaşadığınız binanın həyəti də sizin övladınız üçün D vitamini qəbul etməyə kifayət edər. Uşaqların öz yaşıdları ilə qaçması, oyun oynaması, top qovalaması, velosiped sürməsi üçün imkan yaratmağınız onun sağlamlığına böyük bir töhfə verməyiniz deməkdir. Xüsusilə də qeyd edim ki, D vitamini azlığı daha çox 5 yaşınadək olan körpələrdə və 65 yaşdan yuxarı olan ahıllarda rast gəlinir, ona görə də həyət gəzintisinə körpənizi və evinizin yaşlı sakinini də çıxarmağınız məsləhətdir".

### Psixoloq: "Uşaqlarınızı öz uşaqlığınızdakı kimi böyüdün"

Digər müsahimiz psixoloq Məlahət Həsənova isə deyir ki, uşaqları böyük şəhərlərin daş səkilərində böyütmək çətindir, amma bunun da bir çarəsi var: "Ola bilsin ona təbii kənd həyatını verə bilmirik, işimiz, həyatımız şəhərdə olduğu üçün onu təbii şəraitdə böyüdə bilmirik, amma uşaqları natural həyatla baş-başa qoymaq şəhərdə də mümkündür. Düzdür, məkan o qədər də təbii deyil, amma uşaqlar öz yaşıdları ilə oyun oynayanda bu məkan öz əhəmiyyətini itirir, onlar bir-biri ilə uyğunlaşaraq oyunlara adaptasiya olurlar. Uşaqların psixoloji, fiziki inkişafı baxımından küçə oyunları vacibdir. Qoyun qaçsınlar, yıxılsınlar, lap bir yerləri qanaya bilər, təşvişə düşməyin. Siz özünüz fikirləşin, uşaq olanda necə oyunlar oynamısınız? O oyunları uşaqlara öyrədin".

Ümumiyyətlə, uşaqların qaçdı-tutdu, oynaması, ipdən atlaması, top dalınca qaçması onların həzm sisteminə, mədə-bağırsağın düzgün işləməsinə, qan dövranına, nəfəs almasına olduqca müsbət təsir edir. Həkim deyir ki, xüsusilə dərslərini hazırlamazdan və yatmazdan əvvəl uşaqların bu cür oyunlar oynaması daha qənaətbəxşdir: "Uşaqların qrup halında oynaması onların ünsiyyət qurmasına, daha humanist və paylaşan olmasına xidmət edir. Qaçmaq, harasa dırmaşmaq, nəsə düzəltmək onların həm zehninə, həm də fiziki inkişafına kömək edir. Onların nə psixoloqa, nə həkimə ehtiyacı olmurdu, oyunlarla kossesksiya olunurdular. Cəmiyyət içində necə davramağı da yoldaşları ilə oynayanda öyrənir, özünü ifadə etməyi bacarır".

### Uşaqlarla mikrobları dost edin

Yeni nəsil virtual asılılığı davam etdirsə, gələcək böyük təhlükə altındadır. Həm psixoloji, həm də fizioloji olaraq deqradasiya gedəcək, cəmiyyətin sağlam təməli axsayacaq. Uşaqları hovuz yerinə dənizə, gölə aparın, kompyuter oyunları əvəzinə küçədə beşdaş, çilingağac, bənövşə oynasın, evdə gizlənmək yerinə bayırda qaçıb-yıxılsın, mikroblarla tanış olsun, immun sistemi inkişaf etsin, süni kondisioner havası yerinə həyətdə təmiz havanı tənəffüs etsin, evdə valideynin çəkdiyi siqaretin passiv aludəçisi olmaq yerinə küçədə ağacların tozlarını udsun.

Fiziki iş, oyunlar, hərəkət sağlamlıq deməkdir, uşaqlarınızı küçə oyunlarından məhrum etməyin, evdə kompyuter arxasında sağlamlığını itirən uşaqlarınızı küçəyə sağlamlığını bərpa etməyə göndərin. Uşaqlar küçədə fiziki inkişaflarını



gücləndirən küçə oyunları oynamalıdır, bu onların gələcəyi üçün çox vacibdir. Elə cəmiyyətimzin gələcəyi üçün də böyük dəstəkdir. Kim istər ki, gələcək axsaq dirəklər üstündə bərqərar olsun?

***Lalə Mehralı***

# Qurbanlıq heyvan necə seçilməlidir?



"İslam dinində olan bayramlardan biri də müqəddəs Qurban bayramıdır. "Qurban" ərəb dilində "Qurb" sözündən olub, Allahın rəhmətinə yaxınlaşma anlamına gəlir". Bu sözləri SİA-ya verdiyi açıqlamada Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, İçərişəhər "Cümə" məscidinin axundu Hacı Surxay Məmmədli qeyd edib. Onun sözlərinə görə, "Qurban" sözünə Həzrəti Adəmin dövründə oğlanları arasında baş verən hadisələrdə rast gəlinir. "Allah müqəddəs Quranda buyurur - "Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdir. Sonradan bu, adət halını alıb həqiqi mahiyyətindən çıxıb, şeytanın vasitəsi ilə müəyyən zaman ərzində vəhşi bir qanuna çevrilib. İnsanlar təsərrüfatından hər hansı bir şeyi (əkindən və ya heyvanlardan) qurbanetmə əvəzinə öz övladlarını ilahələrə (bütlərə) qurban edirdilər. Həzrət İbrahim ə.s. zamanında isə bu ilahi nemət onun vasitəsi ilə, qarışıqlıq və bidətlərdən təmizlənərək əsl mahiyyətini tapır. Sonradan Həzrət Muhəmməd ə.s-ın peyğəmbərlik dövründə isə bu, islamda Həcc mərasimində vacibat və müsəlmanlar arasında kütləvilik halını alır. Qurban kəsmək yalnız Həcc mərasimini icra edən hacılara vacibdir. Məkkə şəhərindən kənar olan və Həcc mərasimində olmayan müsəlmanlara isə vacib deyil.

Qurban kəsərkən bir neçə məsələyə diqqət vermək lazımdır. Hətta "Qurani-Kərim"də də hansı heyvanların qurban kəsilməsi ilə bağlı buyurulur. ( Həcc surəsi 34-cü ayə ) Qurbanlıq heyvan sağlam və nöqsansız olmalıdır. Qurbanı fərdi və ya müştərək qaydada da kəsmək olar. Daha yaxşı olar ki, xırdabuynuzlu heyvan fərdi qaydada, iribuynuzlu heyvanı həm fərdi, həm də müştərək qaydada kəsilsin. Müştərək qaydada kəsilən qurbanlıqda kəsilmə və bölünməsində müsəlmanlar şəriət prinsiplərindən kənara çıxmamalıdırlar. Qurbanlıq üçün kəsilən heyvanın zahiri əlamətlərini bildirən məsələlər də İslamda öz əksini tapmışdır. Qurbanlıq heyvan hər şeydən öncə sağlam və nöqsansız olmalıdır. Kor, şikəst, axtalanmış, buynuzu qırılmış və ya hər hansı bədən üzvündə eybi olan heyvanı qurban kəsmək olmaz. Xəstə və ya qocalıb əldən düşmüş heyvanı da qurban kəsmək islam əxlaqı cəhətdən icazəli deyil. Qurbanlıq heyvanın erkək olması daha bəyənilir, amma dişi olsa da, olar. Qurbanlıq üzü qibləyə kəsilməli və kəsənin müsəlman olması vacibdir. Yaxşı olar ki, bayram namazı qılınandan sonra Qurban kəsilsin. Qurbanı kəsəndən sonra onun ətinin bölünməsi məsələsi də şəriət qanunlarına uyğun olmalıdır. Həzrət peyğəmbər ə.s. və məsum imamlardan gələn hədislərə görə, qurbanlıq əti 3 hissəyə bölünməlidir.

**1.** Qurban kəsənin ailə üzvlərinin payı;

**2.** Onun "sileyi-rəhm", yəni qohum əqrəbadan olan ehtiyaclıların payı;

**3.** Ona qohum olmayan qonşu və ətrafdan olan ehtiyaclı müsəmanın payı.

Bu bayramın əsas məqsədi heyvan kəsib ətindən yemək deyil. Uca Allah bu bayramın mahiyyətinə işarət edərək buyurur: "Onların nə əti, nə də qanı Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar. Sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız deyə, bu (heyvanları) sizə beləcə ram etdi. (Sən isə) yaxşılıq edənləri müjdələ!" - Həcc surəsi, 37-ci ayə. Allah kəsilən qurbanları, edilən ibadət və duaları qəbul etsin, bayramınız mübarək olsun!".

***Fazil Mehdixanlı***

## Bu futbolçu "Bavariya"nın əsas transfer hədəfindədir




Almaniyanın "Bavariya" futbol klubunun yay transfer pəncərəsi üçün siyahısı məlum olub. Belə ki, Münhen təmsilçisi müdafiəni gücləndirmək üçün 4 namizədi nəzərdən keçirir: Kim Min Jae ("Napoli"), Pau Torres ("Vilyarreal"), Mikki van de Ven ("Volfsburq") və Kayl Uoker ("Mançester Siti"). Yarımmüdafiəçilər arasında "Bavariya" Pyer-Emil Heyberq ("Tottenhem") və Kay Havertsi ("Çelsi") üstün tutur. Amma "pivəçilər"in əsas transfer hədəfi kimi "Tottenhem"in forvardı Harri Keyndir. Alman klubu ingilis təmsilçisi ilə bu futbolçunun transferi üçün xüsusi danışıqlar aparır. Xatırladaq ki, "Bavariya" hələ keçən ildə H.Keyni transfer etmək istəyib. Lakin o zaman ingilis klubu təklif olunan yüksək məbləği geri çevirmişdi.

## Nar Baş Direktoru startap müsabiqəsində fəxri münsif kimi iştirak edib

"Nar"ın Baş icraçı direktoru Qunnar Panke startaplar üzrə milli çempionatında yarışmasında fəxri münsiflər heyətinin üzvü kimi iştirak edib. Beynəlxalq səviyyədə keçirilən və Miniboss Business School Baku tərəfindən təşkil olunan startaplar üzrə milli çempionatda 6-17 yaş arası istedadlı uşaqlardan və yeniyetmələrdən ibarət komandalar iştirak edib.

Qida, ekologiya, alternativ enerji, İT və bir çox sahələrdə təmsil olunan startaplar arasında ən yüksək nəticə göstərən üç komanda qalib oldu. Komandalar




innovativlik, mənfəətlilik, layihənin əhatə dairəsi, mediada işıqlandırma və münsiflər heyətinin sualına cavablama kimi meyarlar üzrə qiymətləndirildi. Qalib komandalar 16-20 iyul tarixlərində Qlazqo (Böyük Britaniya) şəhərində keçiriləcək dünya çempionatında iştirak edəcək.

Qeyd edək ki, müsabiqənin fəxri münsifi Q.Panke müxtəlif tanınmış telekommunikasiya şirkətlərində strateji rəhbər vəzifələrdə çalışmış və 30 ildən artıq zəgin təcrübəsi ilə rabitə sənayesinin beynəlxalq nüfuza sahib eksperti sayılır.

"Nar"ın layihələri, xidmətləri və məhsulları haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Uşaq pulunu necə kompensasiya etmək olar?

"Azərbaycanda uşaq pulu məsələsi zaman-zaman gündəmə gəlir. Son günlərdə də bu məsələ həm ictimaiyyət, həm də deputatlar və ekspertlər tərəfindən müzakirə olunmaqdadır. Azərbaycanda uşaq pulu Sovet dövründən etibarən 2006-cı ilədək verilib. 2006-cı ildən sonra məbləğ çox az olduğundan uşaq pulunun verilməsi dayandırılıb. Həmin dövrdə bu qərar uşaqlar üçün verilən pulun məbləğinin az olması ilə əsaslandırılıb və dövlətin ünvanlı sosial yardıma üstünlük verdiyi açıqlanıb". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib. Onun sözlərinə görə, 19 may 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Uşaq hüququ haqqında" 499 İQ nömrəli 45 maddədən ibarət qanun imzalanmışdır. Maddə 13-də qeyd edilir ki, uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanış xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır. Maddə 29-da isə bildirilir ki, dövlət uşaqlara birdəfəlik ödəmələr, aylıq müavinətlər, kompensasiyalar formasında sosial yardımlar verir. Ehtiyacı olan uşaqlara müvafiq icra hakimiyyəti orqanları əlavə yardım və imtiyazlar tətbiq edə bilər. Sosial yardımlar uşaqların mənafelərinə uyğun sərf olunmalıdır".




İqtisadçı uşaqlarla bağlı olan müavinətlər haqqında danışarkən bildirib ki, onun müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına müavinət, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət, beşdən çox uşağı olan qadınlara müavinət, övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə müavinət, uşağın anadan olmasına görə müavinət, hamiləlik və doğuma görə müavinət kimi növləri var.

Hamiləlik dövründə və doğumdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Bu məzuniyyət günlərində ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə əmək pensiyasının minimum məbləğinin 25 mislindən artıq olmamaq şərtilə müavinət verilir.

Buna baxmayaraq uşaq pulu vermək lazımdırmı? Dəfələrlə bu mövzu qaldırılanda bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etmişdim. Hətta bəzi təkliflərimi də qeyd etmişdim. Təəssüflər olsun ki, müsbət cavab ala bilməmişdim. Bəs uşaq pulu verilməyən ölkələrdə, uşaq pulunun əvəzinə hansı meyarlar mövcuddur?! Məsələn, ABŞ təcrübəsinə əsaslansaq orada uşaq pulu verilmir, amma ildə 1000 ABŞ dolları müqabilində vergi güzəşti var. Azərbaycanda uşaq pulu verilməsə də, ABŞ təcrübəsindən istifadə edərək vergi güzəşti tətbiq edə bilər. Bu həm də formal məşğulluğu aradan qaldıra bilər. Bundan əlavə dövlət yeni iş yerlərinin açılması üçün yeni layihələr üzərində işləməklə, əhalinin məşğulluğunu tam bərpa edə bilər".

***Ləman Əlizadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**